## Hatayda zəlzələdə dağılan binanın podratçısı xaricə qaçarkən yaxalandı



**Hatayda zəlzələ nəticəsində dağılan binanın podratçısı xaricə qaçmaq istəyib.**

Trend bu barədə Türkiyə KİV-nə istinadən bildirir.

Qeyd edilib ki, o, İstanbul Hava Limanında saxlanılıb.

Xatırladaq ki, fevralın 6-da Türkiyədə səhər saatlarında 7.7 bal gücündə zəlzələ baş verib. Dərinliyi 7 kilometr olduğu müəyyən edilən zəlzələ Hatay, Qaziantep, Kilis, Osmaniye, Malatya, Adıyaman, Şanlıurfa, Diyarbəkir, Adana və Kahramanmaraş vilayətlərində ciddi dağıntılara səbəb olub.

## Böyük Britaniyanın keçmiş səfiri Azərbaycanın yardımına heyran qalıb



**Böyük Britaniyanın Azərbaycandakı keçmiş səfiri Ceyms Şarp Azərbaycanın sarsıdıcı zəlzələyə məruz qalmış Türkiyəyə göstərdiyi yardıma heyran qaldığını bildirib.**

Trend bu barədə keçmiş səfirin Tvitter səhifəsindəki paylaşıma istinadən xəbər verir.

"Azərbaycan dövlətinin və xalqının Türkiyə xalqına bu çətin zamanda göstərdiyi yardıma heyran qaldım", - paylaşımda deyilir.



## Seysmoloji Xidmət Mərkəzi əhaliyə müraciət edib

"Yayılan təxribat xarakterli şayiələrə inanmayın!"

**Respublika Seysmoloji Xidmət Mərkəzi əhaliyə müraciət edib.**

Mərkəzdən "Şərq"ə verilən məlumata görə, müraciətdə bildirilib ki, qardaş Türkiyədə 6 fevral 2023-cü il tarixində baş verən zəlzələdən sonra sosial şəbəkələrdə və bəzi media orqanlarında Azərbaycanda da zəlzələ olacağına dair bəzi "ekspertlər" tərəfindən açıqlamalar yayılır:

"Təəssüf hissi ilə vurğulamaq istəyirik ki, bu cür reallıqdan uzaq, daha çox əhali arasında təşviş yaratmaq məqsədilə yazılan təxribat xarakterli yazılara bəzi hallarda media nümayəndələri də istinad edirlər.

(səh.2)

❒ № 26 (5787) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 11 fevral 2023-cü il (şənbə)



## "Türkiyə, səninləyik!"

Mehriban Əliyeva instaqram hesabında paylaşım edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva instaqram hesabında paylaşım edib.**

**Paylaşımda deyilir:**

**"Əziz həmvətənlər!**

Hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur.

(səh.2)

# Vaxtında müdaxilədə çətinlik olub

Xaricdən Türkiyəyə daha 2 518 xilasedici göndəriləcək



**"Zəlzələ bölgəsindəki bütün binaları bir il içərisində tikib başa çatdıracağıq".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Adıyamandakı çıxışı zamanı deyib. Ərdoğan bildirib ki, bu barədə lazımi şəxslərə təlimatlar verilib. Türkiyə liderinin sözlərinə görə, dağıntılar altından sonuncu insan çıxarılana qədər axtarışlar davam edəcək: "Zəlzələ bölgəsində dağılmış binaların altından sonuncu insan çıxarılana qədər axtarış-xilasetmə tədbirlərini davam etdirməyi qərara almışıq. 1 il içərisində dağılan binaları yenidən inşa edəcək və sahiblərinə təslim edəcəyik".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, 94 ayrı ölkədən gələn yardım təklifləri çərçivəsində heyətlər ölkəmizə gəlməyə davam edir. O bildirib ki, 141 mindən çox şəxsi heyətlə bəlkə də dünyada ən çox xilasedicinin zəlzələ bölgəsində çalışmalarına baxmayaraq, vaxtında müdaxilədə çətinlik olub...

(səh.2)

## Zaxarova Paşinyanı tənqid etdi

"Aİ nümayəndələrinin regiona cəlb edilməsini heç də uğurlu hesab etmək olmaz"



**Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanla sərhəddə Avropa İttifaqının (Aİ) missiyasının göndərilmə səbəbləri haqqındakı bəyanatını tənqid edib.**

Bu barədə o, cümə günü keçirilən brifinqdə danışıb. "Bu cür bəyanatlar Aİ nümayəndələrinin regiona cəlb edilməsinə haqq qazandırmaq cəhdidirsə, bunu heç də uğurlu hesab etmək olmaz", - Zaxarova həftəlik brifinqdə deyib.

(səh.2)

# Azərbaycan Türk Ocağı Türkiyənin yanındadır

İctimai Birlik zəlzələdən zərər çəkənlərə yardım da göndərib



**Azərbaycan Türk Ocağı İctimai Birliyinin rəhbər heyəti və üzvləri Türkiyə ilə həmrəylik nümayiş etdirmək, baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsini yad etmək üçün Bakıdakı Türkiyə səfirliyini ziyarət ediblər.**

Türk Ocağının üzvləri zəlzələdə ölənlərin xatirəsini anmaq məqsədilə səfirliyin qarşısında yaradılan xatirə guşəsinin önünə gül dəstələri düzüblər, ruhlarına dualar oxuyublar. Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri Akif Aşırlı və birliyin üzvləri Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hüseyn Altınalana zəlzələdə həyatını itirmiş şəxslərə görə başsağlığı verib, yaralılara şəfalar diləyiblər.

(səh.3)



## 5 milyard dollardan çox vəsait ayrılıb

Vəsait Türkiyədə zəlzələnin fəsadlarının aradan qaldırılmasına yönələcək

**Ümumilikdə zəlzələnin fəsadlarının aradan qaldırılması üçün 100 milyard lirəlik (5 milyard dollardan çox) vəsait ayırmışıq.**

APA xəbər verir ki, bunu Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Malatyadakı çıxışı zamanı deyib.

"Zəlzələ bölgəsindəki vətəndaşlarımızdan dövlətimizə güvənmələrini xahiş edirəm. Bu gün birlik günüdür. Tək ürək olaraq vətəndaşlarımızla əl-ələ verməliyik", - Ərdoğan əlavə edib.



## Şuşaya qar yağır

**Fevralın 7-si axşam saatlarından başlayaraq Şuşa şəhərinə qar yağışı davam edir.**

Bu barədə "Report"un Şuşaya ezam olunmuş əməkdaşı xəbər verir.

Hazırda rayon ərazisində havanın temperaturu -6 dərəceni göstərir.

Şəhərin küçə və prospektlərində nəqliyyat vasitələrinin təhlükəsiz və fasiləsiz hərəkətini təmin etmək məqsədilə yollar mütəmadi olaraq qardan təmizlənir.

## Bir nəfər ölüb

21 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 21 yeni yoluxma faktı qeydə alınıb, 22 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfər ölüb.

Azərbaycanda indiyədək ümumilikdə 828 195 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 817 944 nəfər müalicə olunaraq sağalıb, 10 098 nəfər vəfat edib, aktiv xəstə sayı 153 nəfərdir.

*Ölkədə son sutka ərzində 980, hazırkı dövrədək isə 7 503 034 test aparılıb.*



## Bütün binaları yararsız hesab etmək doğru deyil

Ekspert: "Tikintilərlə əlaqəli ərazinin təhlükə riskləri diqqətə alınaraq konsepsiya hazırlanmalıdır"

(səh.2)



## Azərbaycanda koronavirus bitmək üzrədir

Mərdan Əliyev: "Kollektiv immunitet formalaşıb, son vaxtlar yüksək göstərici qeydə alınmır"

(səh.5)



# "Türkiyə, səninləyik!"

## Mehriban Əliyeva instaqram hesabında paylaşım edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva instaqram hesabında paylaşım edib.**

**Paylaşımda deyilir:**

**"Əziz həmvətənlər!**

Hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olmaq, əl-ələ verərək çətinliklərdən və sınaqlardan birlikdə üzüağ çıxmaq Azərbaycan xalqının ən gözəl xüsusiyyətlərindən biridir. Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk saatlarından Türkiyə xalqına göstərdiyiniz dəstək xalqlarımız arasında qardaşlıq, dostluq münasibətlərinin, qarşılıqlı sevginin sarsılmazlığının, möhkəmliyinin, əbədiliyinin növbəti əyani sübutudur.

Zəlzələ bölgəsində axtarış-xilasetmə işlərinə cəlb olunmuş xilasedicilərimizə, xəsarət alanların sağlamlığına qovuşması üçün əlindən gələni əsirgəməyən tibb işçilərimizə, faciədən zərər çəkmiş Azərbaycan vətəndaşlarının müəyyən edilməsi və təxliyəsi ilə məşğul olan diplomatik xidmət əməkdaşlarına, hadisələri yorulmadan işıqlandıran KİV nümayəndələrinə təşəkkürümü bildirirəm. Ölkəmizdə başlanılmış yardım kampaniyasına qoşulan hər bir soydaşımıza, yerli şirkət və təşkilatlara, xüsusilə yardım toplama məntəqələrində gecə-gündüz var gücü ilə işləyən könüllülərə, polislərə, bir sözlə qardaş Türkiyə xalqının yanında olmağa çalışan hər kəsə minnətdaram! İnsansevərliyinizə, mərhəmətinizə və şəfqətinizə görə çox sağ olun! Azərbaycanlı olduğuma görə çox qürurluyam!

Zəlzələ nəticəsində həlak olanların sayının artması bizi olduqca kədərləndirir. Həlak olanlara Allahdan rəhmət diləyir, onların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram! Əminəm ki, Türkiyə xalqı öz iradəsi və mətinliyi sayəsində bu ağır sınaqdan sarsılmayacaq! Uca Tanrı dünyamızı qorusun! Türkiyə, səninləyik!"

# Zaxarova Paşinyanı tənqid etdi

## "Aİ nümayəndələrinin regiona cəlb edilməsini heç də uğurlu hesab etmək olmaz"

**Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanla sərhəddə Avropa İttifaqının (Aİ) missiyasının göndərilmə səbəbləri haqqındakı bəyanatını tənqid edib.**

Trend xəbər verir ki, bu barədə o, cümə günü keçirilən brifinqdə danışıb.

"Bu cür bəyanatlar Aİ nümayəndələrinin regiona cəlb edilməsinə haqq qazandırmaq cəhdidirsə, bunu heç də uğurlu hesab etmək olmaz", - Zaxarova həftəlik brifinqdə deyib.

O, rus sülhməramlılarının Qarabağda sülhü təmin etdiklərini qeyd edib: "Hərbi sərhədçilərimiz Ermənistan ərazisində, o cümlədən, Ermənistan-Azərbaycan sərhədində fəaliyyət göstərir. Biz Bakının bununla bağlı narahatlığı haqqında heç vaxt eşitməmişik. Eyni zamanda, Azərbaycanın Aİnin Ermənistanda müşahidə missiyasını yerləşdirmək qərarına tənqidi münasibətindən də xəbərimiz var".




Qeyd edək ki, bu ilin yanvar ayında Avropa İttifaqı Ermənistan-Azərbaycan sərhədində növbəti missiya göndərmək barəsində qərar qəbul edib.

Qərarda missiyanın məqsədinin Ermənistanın sərhəd rayonlarında stabilliyə nail olmaq, yerli səviyyədə əməkdaşlığı yoluna qoymaq və Aİ-nin dəstəyi ilə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində səyləri dəstəkləyən şəraitin təmin olunmasından ibarət olduğu deyilir.

*Xatırladaq ki, 2022-ci il 17 oktyabr tarixində Aİ xarici işlər nazirlərinin Şurası öz iclasında Azərbaycanla sərhədin Ermənistan tərəfinə Cənubi Qafqaz regionundakı vəziyyətin monitorinqi, təhlili və hesabat təqdim olunması üçün təqribən 40 nəfər ekspert müşahidəçi göndərmək barədə qərar qəbul edib. 2022-ci il 19 dekabr tarixində Ermənistandakı Aİ missiyasının monitorinqinin mandatı bitib.*



### Latviya Prezidenti Azərbaycana səfər edəcək

**Latviya Prezidenti Egils Levits martın əvvəlində Azərbaycana səfər edəcək.**

Bu barədə Trend-ə diplomatik mənbədən bildirilib.

O, 9-11 mart tarixlərində Beynəlxalq Nizami Gəncəvi Mərkəzi tərəfindən keçiriləcək X Qlobal Bakı Forumunda iştirak edəcək.

Qeyd edək ki, Forumunun mövzusu "Dünya bu gün: çağırışlar və ümidlər" olacaq.

*Xatırladaq ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi (NGBM) tərəfindən hər il keçirilən Qlobal Bakı Forumu Şərqi Avropa, Cənubi Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərqdə əsas tədbirlərdən birinə çevrilib. Forumda görkəmli lider və ekspertlər üçün dünyanın ən mühüm problemlərini aradan qaldırma yollarını müzakirə etmək imkanı yaradılır.*

### Rusiya Zəngəzurda konsulluq açmaq üçün müraciət etməyib



**Rusiya Ermənistanın Sünik vilayətində konsulluğun açılması ilə bağlı müraciət etməyib.**

APA xəbər verir ki, bunu Rusiyanın Ermənistandakı səfirliyinin mətbuat xidməti bildirib.

Qeyd olunub ki, Sünik vilayətində konsulluğun açılması məsələsi ilə bağlı səfirlik vasitəsilə Ermənistan tərəfinə heç bir müraciət daxil olmayıb.

*Xatırladaq ki, Ermənistanın "Joğovurd" nəşri İranın Qafanda baş konsulluğunun açılışından sonra Rusiya səfirliyi tərəfindən də analoji təkliflə müraciət edildiyini yazmışdı.*

# Bütün binaları yararsız hesab etmək doğru deyil

## Ekspert: "Tikintilərlə əlaqəli ərazinin təhlükə riskləri diqqətə alınaraq konsepsiya hazırlanmalıdır"



**Türkiyədə baş verən zəlzələ ölkəmizin də gündəm mövzusudur. İndiyə qədər olan məlumata görə, həlak olanların sayı 17 mini ötüb, 70 mindən çox insan yaralanıb. Qeyri-rəsmi məlumata əsasən, dağıntılar altında 190 mindən çox insan qalıb.**

Zəlzələdən sonra tikinti şirkətləri əsas tənqid hədəfinə çevrilib. Deputat Fazil Mustafa da təklif edir ki, Azərbaycanda da yeni tikilən binaların möhkəmliyi, zəlzələyə davamlı olub-olmaması yoxlanılmalıdır:

"Paytaxtda yerləşən köhnə tikililərin çoxunda müəyyən problemlər mövcuddur. Çatlar, zirzəmilərdə qrunt suları və s. Yeni tikilən çoxmərtəbəli yaşayış binalarında isə daha ciddi problemlər var. Onların inşası zamanı tikinti normalarına tam əməl edilməyib. Bu binalar tikilən zaman ikinci, üçüncü əl tikinti materiallarından, armaturlardan istifadə olunub".

**Sözügedən məsələ ilə bağlı "Şərq"ə danışan təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirir ki, ikinci, üçüncü əl tikinti materiallarından istifadə edilmə halları var. Lakin bunu tikintilərə şamil etmək doğru deyil:** "Tikintini aparan müəssisə tərəfindən insanların aldadılması, keyfiyyətsiz materiallardan istifadə, binaların yaxın yerləşməsi, işçilərin həyatını təhlükəyə atmaq və s. kimi hallar yaşanır. Amma normal standartlara cavab verən, geoloji işlər aparan, geoseysmik göstəricilər nəzərə alınaraq tikilən binalar da mövcuddur.

Camaat tikinti şirkətlərinin fırıldaqçılıqlarını görüb, ona görə də narahatlıq duyur. İnsanlarda elə təsəvvür yaranıb ki, binaların hamısı keyfiyyətsizdir. Sistemdə insan amili minimallaşdırılmalıdır. Tutalım, sahibkar yeri alır, layihəni götürür, ərazidə bina tikir. Sahibkar istəsə də, standartlardan kənara çıxa bilmir. Tikintilərlə əlaqəli ərazinin təhlükə riskləri diqqətə alınaraq konsepsiya hazırlanmalıdır. Belə durumda heç kim tikinti normalarından kənara çıxmağa cəhd göstərməyəcək.

Tikinti prosesində qumun, sementin, daşın və s. məhsulların alışı üçün rəsmi sertifikasiya tələb olunmalıdır. Sertifikatsız tikinti vasitələrinin keyfiyyəti sual altındadır".

**Aygün Tahir**

# Sahibkarlıq sahəsində yoxlamalar daha 1 il dayandırılıb



**Azərbaycanda sahibkarlıq sahəsində aparılan yoxlamaların müddətinin 2024-cü il yanvarın 1-nə qədər uzadılıb.**

Bununla bağlı Prezident İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanuna dəyişikliyi təsdiqləyib.

Hazırkı qanuna əsasən sahibkarlıq sahəsində yoxlamaların dayandırılması müddəti 2023-cü il yanvarın 1-də bitirdi. Beləliklə, yaxın 1 ildə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar da müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məhdudiyyət nəzərə alınmaqla aparılmalıdır. Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluğun apardığı yoxlamalara şamil edilmir.

# "Təhsil haqqında" qanuna dəyişiklik təsdiqlənib



**Prezident İlham Əliyev "Təhsil haqqında" qanuna dəyişikliyi təsdiqləyib.**

Dəyişikliklə ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsindən xaric və ya bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarını müəyyən etmək dövlətin vəzifələri sırasına əlavə edilir.

Bundan əlavə, orta ixtisas təhsil müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarını da müəyyən etmək dövlətin vəzifəsi sayılacaq.

Elm və Təhsil Nazirliyinə ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində, habelə orta ixtisas təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsi qaydalarını iki ay müddətində tabeliyində müvafiq təhsil müəssisəsi olan dövlət orqanları (qurumları) və Dövlət İmtahan Mərkəzi ilə razılaşdırmaqla təsdiqləmək tapşırılıb

# Seysmoloji Xidmət Mərkəzi əhaliyə müraciət edib

## "Yayılan təxribat xarakterli şayiələrə inanmayın!"




**Respublika Seysmoloji Xidmət Mərkəzi əhaliyə müraciət edib.**

**Mərkəzdən "Şərq"ə verilən məlumata görə, müraciətdə bildirilib ki, qardaş Türkiyədə 6 fevral 2023-cü il tarixində baş verən zəlzələdən sonra sosial şəbəkələrdə və bəzi media orqanlarında Azərbaycanda da zəlzələ olacağına dair bəzi "ekspertlər" tərəfindən açıqlamalar yayılır:**

"Təəssüf hissi ilə vurğulamaq istəyirik ki, bu cür reallıqdan uzaq, daha çox əhali arasında təşviş yaratmaq məqsədilə yazılan təxribat xarakterli yazılara bəzi hallarda media nümayəndələri də istinad edirlər.

Bütün bunlarla bağlı bəyan edirik ki, sosial şəbəkələrdə yayılan təxribat xarakterli məlumatların heç bir əsası yoxdur. Vətəndaşlarımızı belə şayiələrə inanmamağa və rəsmi qurumlar tərəfindən verilən açıqlamaları diqqətlə izləməyə çağırırıq.

AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin seysmik stansiyalar şəbəkəsi tərəfindən respublika ərazisindəki seysmik vəziyyət izlənilir və hazırda ölkə ərazisində seysmiklik fon səviyyəsindədir.

Yayılan təxribat xarakterli şayiələrə inanmayın!"

# Rusiya Ukrayna ərazisinə 71 qanadlı raket atıb

## Enerji infrastrukturuna ziyan dəyib



**Fevralın 9-da axşam saatlarından fevralın 10-da gündüz saatlarınadək Rusiya silahlı qüvvələri tərəfindən Ukrayna ərazisinə 71 qanadlı raket atılıb.**

Azərtac xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Komandanlığı məlumat yayıb.

Bildirilib ki, bu raketlər arasında 43 X-101 / X-555, 28 "Kalibr", 35 S-300 kompleksinin raketləri olub. Bundan əlavə, İran istehsalı olan "Şahed" tipli 7 zərbə PUA-sından istifadə edilib.

Ukrayna Silahlı və Müdafiə qüvvələrinin digər bölmələrinin qüvvə və vasitələri düşmənin 61 qanadlı raketini və 5 pilotsuz uçuş aparatını məhv edib.

Kiyev şəhərinin meri Vitali Kliçko isə açıqlamasında raket zərbəsi nəticəsində paytaxtın enerji infrastrukturuna ziyan dəydiyini bildirib. Eyni zamanda, Kiyev səmasında 10 raket zərərsizləşdirilib. Vurulan raket qalıqları paytaxtın yaşayış binasına ziyan vurub.

Ümumilikdə Ukrayna ərazisinə edilən kütləvi raket hücumu ölkənin bir sıra iri şəhərlərinin enerji infrastrukturuna ziyan vurub.

Bu gün atılan raketlərin bəziləri Moldova üzərindən olduğundan Rusiya səfiri Moldova Xarici İşlər Nazirliyinə çağırılıb.





# Azərbaycan Türk Ocağı Türkiyənin yanındadır

## İctimai Birlik zəlzələdən zərər çəkənlərə yardım da göndərib



**Azərbaycan Türk Ocağı İctimai Birliyinin rəhbər heyəti və üzvləri Türkiyə ilə həmrəylik nümayiş etdirmək, baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsini yad etmək üçün Bakıdakı Türkiyə səfirliyini ziyarət ediblər. Türk Ocağının üzvləri zəlzələdə ölənlərin xatirəsini anmaq məqsədilə səfirliyin qarşısında yaradılan xatirə guşəsinin önünə gül dəstələri düzüblər, ruhlarına dualar oxuyublar.**

Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri Akif Aşırlı və birliyin üzvləri Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hüseyn Altınalana zəlzələdə həyatını itirmiş şəxslərə görə başsağlığı verib, yaralılara şəfalar diləyiblər. Akif Aşırlı vurğulayıb ki, Azərbaycan dövləti və xalqı hər zaman bütün imkanları ilə qardaş Türkiyənin yanındadır. Azərbaycan Türk Ocağı da belə acı bir gündə türk xalqının yanındadır, dərdlərinə ortaqdır. Hüseyn Altınalan ziyarətə, maddi-mənəvi dəstəyə görə Türk Ocağının üzvlərinə təşəkkürünü bildirib. İnsanlar fasiləsiz olaraq səfirlik önünə axın edir, guşə önündə şəhidlərə ehtiramlarını bildirir, qardaş Türkiyənin dərdi ilə dərdlənirlər. Ziyarətə gələn vəfakar azərbaycanlılar arasında azyaşlı bağça uşaqları da var idi. Əllərində Türkiyə və Azərbaycan bayraqları tutmuş balaca ürəklər iki-üç cərgəlik sıra ilə səfirlik önünə addımlamağa tələsirdilər.






Daha sonra Azərbaycan Türk Ocağı İctimai Birliyinin zəlzələdə zərər görmüş, ev-eşiksiz qalmış qardaşlarımız üçün hazırladıqları 7 qutu və bir bağlama yardım toplanma məntəqəsi olan - Heydər Əliyev adına İdman-Konsert Kompleksinə aparılıb. Qutularda zəlzələdən zərər çəkmiş insanlar üçün zəruri ehtiyaclar - qida, qeyri-ərzaq malları, isti qış geyimləri, papaqlar, corablar, əlcəklər, fanarlar və digər yardımlar olub.

Millət vəkili Qənirə Paşayeva da Azərbaycan Türk Ocağı adından əlavə olaraq qış gödəkçələri və ayaqqabıları yardım toplanan məntəqəyə göndərib.

Qeyd edək ki, Azərbaycan xalqı Türkiyədə baş vermiş güclü zəlzələdən zərərçəkənlərə kömək üçün səfərbər olub. Qardaş köməyinə çatmaq üçün vətəndaşlar yardımtoplama məntəqələrinə axın edirlər. Toplanan yardımlar könüllülər tərəfindən çeşidləndikdən sonra TIR-lara yüklənir və qardaş ölkəyə yola salınır.

*Xatırladaq ki, qardaş ölkədə baş vermiş təbii fəlakətlə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün Türkiyədə bir həftə matəm elan edib. Qardaş ölkənin Azərbaycandakı səfirliyinin önündəki Türkiyə bayrağı da yarıya qədər endirilib.*

**İsmayıl Qocayev**

# Sonunu yaxınlaşdırır

## Paşinyanı həm də elə korrupsiya yıxacaq



**"Paşinyandan əvvəl də Ermənistanda korrupsiya var idi. Rüşvətxorluq sovet respublikalarının əksəriyyətinə xasdır".**

**Bu barədə "Şərq"ə siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev Paşinyan hakimiyyəti dövründə ölkədə korrupsiya və rüşvətxorluğun artmasından danışarkən deyib.**

Onun sözlərinə görə, Ermənistan baş nazirinin dövründə rüşvətin azaldığını demək olmaz: "Paşinyan çalışdı ki, nələrsə etsin. Lakin mövcud sistemə qoşulmalı oldu. 1-2 il sonra arvadının adına 3 milyon dollarlıq ev məsələsi ortaya çıxdı. Yəni baş nazir istər-istəməz Ermənistandakı mövcud vəziyyətlə hesablaşmaq məcburiyyətində qaldı. Müharibə dövründə korrupsiya sövdələşmələri daha da çoxaldı. Paşinyanın bütün bunlardan xəbərsiz olması isə mümkünsüzdür. O özünü qorumaq, təmizə çıxarmaq üçün bu sözlərdən istifadə edir. Amma Paşinyan hakimiyyəti daxilində rüşvət inkişaf edib. Görünən odur ki, sözügedən hakimiyyəti elə korrupsiya yıxacaq. Ermənistanda Paşinyanın özündən əvvəlki hakimiyyətin dövründən olan hərbçilərə qarşı cinayət işləri açılır. Generallar, prokurorları həbs etməklə adıçəkilən baş nazir öz hakimiyyətini təmizə çıxarmaq istəyir. Eyni zamanda hakimiyyətinə mesaj verərək, onları qorxutmaq istəyir ki, bu günlərdən sizin üçün də var. Bir növ öz gələcəyini sığortalayır. Amma çox gözəl bilir ki, "postundan" düşsə, hansısa ölkəyə sığınacaq. Paşinyanın əli ilə erməni lobbisi çox böyük bizneslər həyata keçirir. Bu şəkildə davam etməsi təbii ki, Ermənistanın maraqlarına uyğun deyil. Lakin Paşinyanın ayrı cür davam etmək şansı da yoxdur. Korrupsiya, rüşvət olan yerdə hakimiyyət təbii ki, laxlayacaq. Tezliklə yıxılacağına inanmıram. Amma Paşinyan hakimiyyətinin süqutuna səbəb korrupsiya ilə bərabər, həm Rusiyaya qarşı tutduğu mövqe, həm də ölkə daxilindəki qüvvələrin baş nazirlə üz-üzə gəlməsidir. Ona görə bunlar Paşinyan hakimiyyətinin sonunu yaxınlaşdırır".

*Qeyd edək ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın hakimiyyəti dövründə ölkədə korrupsiya və rüşvətxorluq daha da artıb. N.Paşinyan isə bütün bunlara görə başqalarını günahlandırır.*

**Sücayət Mehti**

# Milyardlarla dollar vəsait lazım olacaq

Türkiyə zəlzələnin iqtisadi nəticələrini aradan qaldırmaq üçün xarici borclanmaya getməli ola bilər



**"Zəlzələnin Türkiyə iqtisadiyyatına da neqativ təsir göstərəcəyi gözlənilir". Bu barədə millət vəkili Vüqar Bayramov deyib.**

Deputat vurğulayıb ki, ilkin qiymətləndirmələrə görə, zəlzələnin iqtisadi nəticələrini aradan qaldırmaq üçün milyardlarla dollar vəsait lazım olacaq ki, bu da Türkiyədə iqtisadi artım tempini 2 faiz bənd azalda bilər: "13.4 milyon vətəndaşın yaşadığı bölgədə minlərlə bina, o cümlədən evlər, sosial obyektlər, hospitallar və digər infrastrukturun yenidən bərpası ciddi maliyyə resursları tələb edir. Ötən il Türkiyə lirəsi dollar qarşısında 30 faizə yaxın dəyər itirdi və istehlak bazarında qiymətlər 85 faiz yüksəldi. Bununla yanaşı, qardaş dövlət 2023-ci ilə kifayət qədər nikbin gözləntilər ilə başlamışdı. Bu ilin ilk ayında lirənin kursu optimal intervalda dəyişdi və iqtisadi artım daha canlandı. Bu isə illik kifayət qədər pozitiv proqnozlar verməyə imkan yaradırdı. Gözlənilir ki, Türkiyə zəlzələnin iqtisadi nəticələrini aradaq qaldırmaq üçün xarici borclanmaya da getməli ola bilər. Hazırda xarici borcun ÜDM-yə nisbəti 34 faizdir. Beynəlxalq ekspertlərin fikrincə, bu rəqəmin ilin sonunda 43 faizədək yüksələcəyi gözlənilir. Bütün bunlarla yanaşı, qardaş Türkiyə belə ağır günləri arxada qoymaq, həmin əraziləri yenidən qurub və bərpa etmək gücünə malikdir. Hər zaman yanındayıq, qardaş Türkiyə".

**İsmayıl**

# "Azərbaycan yas tutur, heç kimin kefi yoxdur"

## Türkiyə səfirinin müşaviri: "İctimaiyyətin hər təbəqəsi zəlzələnin ağrısını ürəyində hiss edir"



**"Azərbaycan da yas tutur. Heç kimin kefi yoxdur".**

**Bunu Türkiyənin Azərbaycandakı səfirliyinin müşaviri Hüseyn Altınalan tviterdə yazıb.**

O bildirib ki, Azərbaycanda ictimaiyyətin hər təbəqəsi zəlzələnin ağrısını ürəyində hiss edir: "Bakıdakı məscidlərdə imamlar dualarının böyük hissəsini ölkəmizdə zəlzələdən zərərçəkənlərə həsr ediblər. O dualara "amin" deyərkən səslərin çox möhkəm çıxması təsiredici idi. Yaşasın qardaşlığımız".

Xatırladaq ki, fevralın 6-da ocağı Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonu olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ olub. Son məlumata görə, Türkiyədə dağıdıcı zəlzələ nəticəsində ölənlərin sayı 18 342 nəfərə çatıb. Təbii fəlakət nəticəsində 74 242 nəfər yaralanıb. Zəlzələdən sonra bölgədə 1509 afterşok qeydə alınıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün ölkədə 7 günlük matəm elan edib. Bundan başqa, ölkənin zəlzələ baş verən 10 şəhərində 3 aylıq fövqəladə vəziyyət elan olunub.

Bu hadisə Türkiyədə 1939-cu ildən bəri qeydə alınan ən güclü zəlzələ kimi tarixə düşüb.

Təbii fəlakət həmçinin Suriyada böyük dağıntı və minlərlə itkilərə səbəb olub, eyni zamanda Livan, Kipr, İraq, İsrail, İordaniya, İran və Misirdə də hiss edilib.

# Dövlət institutları son 20 ildə zəifləyib

## Türkiyədə növbəti seçkilərdə iqtidarın dəyişəcəyi ehtimalı çox yüksəkdir



**Türkiyənin İYİ Partiyasının sədri Maral Akşənər jurnalist Murad Yetkinin seçkilərlə bağlı sualını cavablandırarkən deyib ki, seçkinin 14 mayda keçiriləcəyini düşünmür. Onun iddiasına görə, seçki əvvəl müəyyən olunmuş tarixə, iyunun 18-nə qala bilər.**

Jurnalistin "Türkiyə Böyük Millət Məclisi (TBMM) seçkilərin keçirilməsini 1 il təxirə sala bilərmi" sualına partiya sədri belə cavab verib: "Məclisdən belə bir qərar çıxacağını ehtimal etmirəm. Biz siyasətçilər seçkilərin keçirilməsi üçün üzərimizə düşəni etmək məcburiyyətindəyik". Bəzi ekspertlər də Türkiyədə prezident seçkilərinin iyuna kimi gecikdirilə biləcəyini düşünürlər. Lakin əsas məsələ baş vermiş faciənin siyasi proseslərə və seçkiyə necə təsir göstərəcəyididir.

**ReAL Partiyasının sədr müavini Natiq Cəfərli də qeyd edib ki, Türkiyədə növbəti seçkilərdə iqtidarın dəyişəcəyi ehtimalı çox yüksəkdir. Onun sözlərinə görə, yeni iqtidar Türkiyənin daxili problemlərinə, sistem dəyişikliklərinə, fəlakətli zəlzələnin nəticələrinin aradan qaldırılmasına fokuslanmağa məhkum olacaq: "Dövlət institutları son 20 ildə** zəifləyib. Yeni iqtidar dünyada özünü təsdiq etməyə çox zaman və güc sərf edəcək ki, bu da Türkiyənin xarici siyasətdə aktivliyinə, istər-istəməz təsir göstərəcək. Türkiyədə iqtidara kimin gələcəyindən asılı olmayaraq, Azərbaycanla dost, qardaş münasibətlər, stateji müttəfiqlik dəyişməyəcək. Amma rəsmi Ankaranın bəzi regional məsələlərə müdaxilə imkanları azala bilər. Azərbaycan olaraq bunu nəzərə almalı, digər müttəfiqlik münasibətlərini dərinləşdirməliyik. Bunun üçün Qərblə, AB ilə, əsasən də Britaniya və ABŞ ilə daha yaxşı münasibətlər alqoritmi qurulmalıdır".

**İsmayıl**

# İran Zəngəzur dəhlizinin açılmaması üçün hər vasitəyə hazırdır

## Paşinyan-Makron-Rəisi arasında Nikolun vasitəçiliyi ilə dolayısı yolla gizli anlaşma var



**"İran Zəngəzur dəhlizinin yaradılmasına imkan verməyəcək". Bu sözləri İranın Ermənistandakı səfiri Abbas Bədəxşan Zuhuri deyib. O bildirib ki, Tehranın mövqeyi dəqiqdir: "Region ölkələri arasında problemlər onların öz iştirakı ilə həll edilməlidir. Digər ölkələr də regionda təhlükəsizliyin və sülhün təmin edilməsi baxımından töhfə verə bilər.**

Problemlərin region ölkələrinin iştirakı ilə həlli dialoq və müzakirələrə əsaslanmalıdır. Bu, təhlükəsizliyi və sülhü təmin edə bilər". Səfir onu da qeyd edib ki, İran Avropa İttifaqının müşahidəçilərinin Zəngəzura gəlməsinə qarşı deyil. Onun sözlərinə görə, regionda sülhün qorunmasına digər dövlətlər də töhfə verə bilərlər.

**Politoloq Zaur Məmmədov "Şərq"ə bildirib ki, əvvəlki çıxışlarında Paşinyan-Makron-Rəisi arasında Nikolun vasitəçiliyi ilə dolayısı yolla gizli anlaşma olduğunu qeyd edib. Ekspertə görə, Ermənistan baş nazirinin ayrı-ayrılıqda Fransa və İran liderləri ilə gəldiyi razılığa əsasən bölgəyə Aİ xüsusi nümayəndələri yerləşdirilir və Tehran nəinki buna etiraz etmir, hətta alqışlayır:** "İran Zəngəzur dəhlizinin açılmamasını və Qərbi Zəngəzurda sərhəd dəyişikliklərinin olmaması üçün hər vasitəyə hazırdır. Hətta ötən ilin sentyabrın 13-14 günlərində məhz İran ordusunun iştirakı ilə Ermənistan ordusunun postumuza Azərbaycan sərhəddi istiqamətinə hücum etdiklərini istisna etmirəm. İran Fransa polisinin və digər Aİ ölkələrinin Ermənistana gəlişi ilə qırmızı cizgi saydığı Qərbi Zəngəzurda özünü Azərbaycan Ordusu ilə toqquşmadan sığortalayır və ümid edir ki, avropalıların gəlişi Azərbaycanın istəklərinin reallaşmaması ilə nəticələnəcək. Elə buna görə də Tehran 30 ildə ilk dəfə olaraq NATO və Aİ dövlətlərinin xüsusi nümayəndələrinin Cənubi Qafqaza gəlişinə nəinki etiraz etmir, hətta razılığını Paşinyana verir. Bu addım, Rusiya və İran arasında Ermənistanla bağlı son iki ildə ilk belə fikir ayrılığı deyil".

*Z.Məmmədov vurğulayıb ki, Rəisi hakimiyyəti müasir İran tarixində ən uğursuz xarici siyasət yürüdən administrasiya kimi tanındı:* "Paşinyanın məqsədi təkcə Rusiyadan deyil, həm də İrandan gələcəkdə xilas olmaqdır. Beləcə, ilk baxışdan görünməsə də, Aİ xüsusi missiyasının İranın Paşinyana xeyir-duası ilə Qərbi Zəngəzura gəlməsinin nəticəsi Azərbaycanın deyil, Azərbaycana qarşı məkrli siyasət quranlar üçün iflas ilə nəticələnəcək. Artıq nəticələnməkdədir. Laçın dəhlizində giriş-çıxış Azərbaycanın nəzarətindədir və bundan sonra belə də olacaq. Güman edirəm, bir neçə həftə ərzində daha bir tələbimizin reallaşmasının ictimaiyyətə açıqlanmasını izləyə bilərik. Yaxın vaxtlarda Vardanyanla bağlı yeni xəbərin gələcəyini istisna etmirəm".

**İsmayıl Qocayev**

# Vaxtında müdaxilədə çətinlik olub

## Xaricdən Türkiyəyə daha 2 518 xilasedici göndəriləcək



**“Zəlzələ bölgəsindəki bütün binaları bir il içərisində tikib başa çatdıracağıq”. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Adıyamandakı çıxışı zamanı deyib. Ərdoğan bildirib ki, bu barədə lazımi şəxslərə təlimatlar verilib. Türkiyə liderinin sözlərinə görə, dağıntılar altından sonuncu insan çıxarılana qədər axtarışlar davam edəcək: ”Zəlzələ bölgəsində dağılmış binaların altından sonuncu insan çıxarılana qədər axtarış-xilasetmə tədbirlərini davam etdirməyi qərara almışıq. 1 il içərisində dağılan binaları yenidən inşa edəcək və sahiblərinə təslim edəcəyik”.**

**“94 ölkədən yardım təklifləri almışıq”**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, 94 ayrı ölkədən gələn yardım təklifləri çərçivəsində heyətlər ölkəmizə gəlməyə davam edir. O bildirib ki, 141 mindən çox şəxsi heyətlə bəlkə də dünyada ən çox xilasedicinin zəlzələ bölgəsində çalışmalarına baxmayaraq, vaxtında müdaxilədə çətinlik olub: ”Hazırda xaricdən və ölkəmizin dörd bir yanından ölkəmizə yardımlar göndərilir”. O, bütün vətəndaşlara müraciət edib: ”AFAD-la və ya Qızıl Aypara ilə əlaqəyə keçmədən yardım toplayıb yola çıxmayın. Qarşıdakı aylarda yarana biləcək ehtiyaclar üçüm yardımların koordinasiyalı olması çox vacibdir. AFAD-a göndərilən maddi yardımların hamısı zəlzələ bölgəsinə xərclənir”.

**Türkiyə lideri zərərçəkənlərə yardımla bağlı yaranmış əsas problemi açıqlayıb**

Ərdoğan deyib ki, indi əsas problem kənardan gələn maşınların yaratdığı tıxacdır. O bildirib ki, yardım kampaniyası koordinasiyalı şəkildə həyata keçirilməlidir: ”AFAD-ın hesablarına köçürülən məbləğlər bütünlüklə zəlzələdən zərərçəkmişlərə ayrılacaq. Buna şübhəniz olmasın”.

Türkiyənin Fövqəladə Halların İdarə Olunması Agentliyi (AFAD) məlumat yayıb ki, xaricdən Türkiyəyə minlərlə xilasedici göndəriləcək. Bildirilib ki, hazırda 60 ölkədən gələn 6 min 810 xilasedici axtarış-xilasetmə işlərinə cəlb olunub. Məlumata görə, daha 19 ölkə 2 min 518 xilasedici göndərəcək.

**Türkiyənin Kilis və Şanlıurfa vilayətlərində axtarış-xilasetmə əməliyyatları başa çatıb**

Türkiyənin Kilis və Şanlıurfa vilayətlərində axtarış-xilasetmə əməliyyatları başa çatıb. Türkiyənin vitse-prezidenti Fuat Oktay bildirib ki, Diyarbəkir, Adana və Osmaniye vilayalətlərində də axtarış işlərinin böyük hissəsi tamamlanıb.

**NATO zəlzələdə evlərini itirənlər üçün üçün Türkiyədə yarıdaimi sığınacaq obyektləri yerləşdirəcək**

NATO-nun mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, hərbi alyans dağıdıcı zəlzələ nəticəsində evlərini itirmiş insanların yerləşdirilməsinə kömək etmək üçün Türkiyəyə tam təchiz olunmuş yarıdaimi sığınacaq obyektləri yerləşdirmək barədə razılığa gəliblər. NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı, general Kristofer Kavoli prosesə rəhbərlik edəcək: ”NATO müttəfiqimiz Türkiyə ilə güclü həmrəylik nümayiş etdirir və bu sığınacaq obyektlərinin yerləşdirilməsi insanların həyatını xilas etməyə kömək edəcək. NATO müttəfiqləri və tərəfdaşları yardım səylərinə əsaslı dəstək verir və biz, ehtiyacı olanlara kömək etmək üçün əlimizdən gələni etməyə davam edəcəyik”. Qeyd edək ki, sığınacaqlar adətən NATO tərəfindən təlimlər və əməliyyatlar üçün yerləşdirilə bilən qərargah kompleksi kimi istifadə olunur. Onlar istilik, elektrik generatorları və müalicə sahələri daxil olmaqla bir sıra şəraitlə təchiz oluna bilər. Bildirilib ki, alyansın hərbi səlahiyyətliləri hazırda ən yaxşı logistika və nəqliyyat variantlarını və yerləşdirmə müddətini araşdırır.



BMT baş katibi Antoniu Qutterеş deyib ki, Türkiyə və Suriya xalqları üçün ayağa qalxmaq vaxtıdır

**Gürcüstan Türkiyəyə humanitar yardım üçün bir milyon lari ayırıb**

Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin qərarına əsasən, Türkiyədə zəlzələdən zərər çəkmiş əhaliyə humanitar yardımın alınması məqsədilə bir milyon lari (637 min manat) ayrılıb. Ayrılan vəsaitin təbii fəlakətdən zərər çəkənlər üçün dərman, ərzaq, geyim, tibbi avadanlıq və digər zəruri malların alınmasına, həmçinin Türkiyə Respublikasına daşınmasına yönəldiləcəyi bildirilib. Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay isə bildirib ki, bu gün Gürcüstandan Türkiyəyə 5 TIR humanitar yardım yola salınacaq. Səfir qeyd edib ki, hazırda Türkiyənin Adıyaman vilayətində 100 gürcü xilasedici fəaliyyət göstərir. Qeyd edək ki, bir neçə gündür ki, Gürcüstanda soydaşlarımızın kompakt yaşadığı regionlarda da yardım kampaniyalarına start verilib. Ayrı-ayrı icma təşkilatları və şəxslərin təşəbbüsü ilə toplanmış humanitar yardımlar Türkiyənin Gürcüstandakı səfirliyi və müxtəlif xeyriyyə təşkilatları vasitəsilə Türkiyəyə yola salınır.

**İsrail Türkiyəyə növbəti dəfə böyükmiqyaslı humanitar yardım göndərəcək**

İsrail yaxın günlərdə Türkiyəyə böyükmiqyaslı humanitar yardım göndərəcək. İsrail Xarici İşlər Nazirliyinin Rəqəmsal Diplomatiya Departamentinin direktoru David Saranqa bildirib ki, hazırda güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasında Türkiyəyə yardım üçün 450 nəfərlik heyət işləyir ki, bunlar arasında xilasedicilər, tibb işçiləri, ekspertlər və s. var. İsrail XİN rəsmisi qeyd edib ki, indiyədək axtarış-xilasetmə qrupu dağıntılar altından 18 nəfəri xilas edib: ”İsrail səhra xəstəxanası bu gün səhər saatlarında fəaliyyətə başlayıb. Enerji mənbəyinə ehtiyac olmadan yenilikçi İsrail texnologiyası ilə işləyən 1-ci şəbəkədənkənar su təmizləmə sistemləri Türkiyəyə gəlib. Yaxın zamanda on minlərlə ədyal, yataq kisəsi, palto və qış ləvazimatları daxil olmaqla irimiqyaslı yardım göndəriləcək. İsrail həmçinin gündə minlərlə insanı içməli su ilə təmin edən böyük su təmizləmə sistemləri göndərəcək”.

**İsveç Türkiyəyə axtarış-xilasetmə qrupu göndərib**

İsveçdən Türkiyəyə kömək üçün axtarış-xilasetmə qrupu yola düşüb. İsveçin Azərbaycandakı səfirliyinin feysbuk səhifəsində məlumat verilib ki, Türkiyə və Suriyada baş verən dağıdıcı zəlzələlərin fəsadlarının aradan qaldırılması üçün İsveç yardımı yoldadır: ”Axtarış-xilasetmə qrupunu daşıyan təyyarə İsveçdən havaya qalxıb. 45 nəfərlik qrupa tibb işçiləri, itləri olan axtarış-xilasetmə qrupları və idarəetmə dəstəyi daxildir. Bu həftənin əvvəlində İsveç ekspertlər göndərib və humanitar yardım üçün 3,2 milyon avro yardım ayırıb. İsveç həmçinin BMT-nin Fövqəladə Hallara Cavab Fondu (CERF) və Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (IFRC) vasitəsilə dəstək göstərir”. Qeyd olunub ki, İsveçin Türkiyə və Suriyada zərərçəkmiş və ehtiyacı olanlara dəstək vermə səyləri davam edəcək.

**“Türkiyə və Suriya xalqları üçün ayağa qalxmaq vaxtıdır”**

BMT baş katibi Antoniu Qutterеş deyib ki, Türkiyə və Suriya xalqları üçün ayağa qalxmaq vaxtıdır: ”Mən Türkiyəyə və Suriyaya dəfələrlə səfər etmişəm. Milyonlarla məcburi köçkünə evlərini və qəlblərini açan insanların həmrəyliyini heç vaxt unutmayacam. İndi o evlər dağılıb və o ürəklər parçalanır. Türkiyə və Suriya xalqları üçün ayağa qalxmağın vaxtıdır”.

**ÜST Türkiyə və Suriyaya dəstək üçün 3 milyon dollar ayırıb**

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) zəlzələnin fəsadları ilə mübarizə işində Türkiyə və Suriyaya dəstək olmaq üçün Fövqəladə Hallar üzrə ehtiyat fondundan 3 milyon dollar ayırıb. Məlumata görə, ayrılan məbləğə dərmanlar yüklənmiş üç çarter reysinin göndərilməsi də daxildir. Bundan əlavə, hər iki ölkəyə dünyanın hər yerindən olan tibb işçilərindən ibarət 77 milli və 13 beynəlxalq təcili yardım briqadası göndərilib. Təşkilatdan bildirilib ki, hazırda səylərin hara yönəldilməli olduğunu müəyyən etmək üçün zərərin ”xəritəsi”nin qiymətləndirilməsi üzərində iş aparılır.

**Almaniya Türkiyəyə yardım məqsədilə 3 təyyarə göndərib**

Almaniya Hərbi Hava Qüvvələrinin humanitar yardım daşıyan 3 təyyarəsi Türkiyəyə eniş edib. Təyyarələr NATO-nun əsas aerodromu olan İncirlik hava bazasına enib. Bazada yardım ABŞ qüvvələri tərəfindən boşaldılacaq. Yaxın günlərdə ”Airbus A400M” nəqliyyat təyyarələrindən istifadə etməklə hava dəhlizi yaradılacaq. Hərbi Hava Qüvvələrinin sözçüsü, 62-ci Hava Nəqliyyatı Eskadrilyasının komandiri Kristian Con deyib ki, gələn həftəyə qədər hər gün üç təyyarə göndəriləcək ki, bu da humanitar yardımın həcmindən asılıdır. Bundan əvvəl Almaniya kansleri Olaf Şolts Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı zəlzələ ilə bağlı əlavə yardım vəd edib. Almaniyanın xarici işlər naziri Annalena Berbok Türkiyə və qonşu Suriyadakı zəlzələdən zərər çəkənlərin ehtiyacları üçün əlavə olaraq 1 milyon avro ayıracağını bildirib.

**Britaniyanın Baş naziri şəxsən Türkiyə və Suriyaya yardıma qoşulub**

Britaniyanın Baş naziri Rişi Sunak zəlzələdən zərər çəkən Türkiyə və Suriya xalqları üçün yardıma qoşulub. Krallığın Baş naziri Rişi Sunak deyib: ”Türkiyə və Suriya xalqı, bilin ki, Böyük Britaniya sizinlədir”.

**İsmayıl**




# Vasif Talıbov Bakıdan gedən nazirləri qapıda gözlədib

## İndi vəziyyət elə deyil, məmurlar bölgəyə rahat gedirlər

**“Baş nazirin müavini Şahin Mustafayev və digər rəsmi şəxslərin Naxçıvana səfəri normal haldır”.**

**Bunu ”Şərq”ə tanınmış jurnalist, ”Ovqat.com” saytının baş redaktoru Heydər Oğuz Baş nazirin müavini Şahin Mustafayevin Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəsi ilə görüşündən danışarkən bildirib.**

O, diqqətə çatdırıb ki, Naxçıvan Azərbaycanın tərkib hissəsidir və rəsmi şəxslər tez-tez bu diyara səfər etməlidirlər: ”Məsələ burasındadır ki, Vasif Talıbovun hakimiyyəti dönəmində Azərbaycan rəsmilərinin Naxçıvana səfərlərinə qısqanclıqla yanaşılırdı. Muxtar Respublika rəhbərliyi hesab edirdi ki, paytaxtdan bu diyara təşrif buyuranlar onun müstəsna səlahiyyətlərinə qarışır, Naxçıvanın muxtar statusunu tapdalayırlar. Hətta Vasif Talıbovun bir çox naziri qapıda gözlədib, qəbul etmədən yola saldığı da olurdu. Məhz bu cür ərköyünlüyü sayəsində Naxçıvan hakimiyyətinin paytaxtdan ayrılan dotasiyaları tam nəzarətsiz mənimsədiyi də bəlli idi. İndi Naxçıvana bu kimi səfərlər keçmişdən miras qalan yeyintiləri müəyyənləşdirmək, maliyyə yoxlamalarının nəticələrini yerində öyrənmək, yerli rəhbərliyə bəzi vacib məsləhətlər vermək məqsədi də daşıya bilər. O ki qaldı Naxçıvanın təhlükəsizliyinə, hesab edirəm ki, bu diyarın müdafiəsi və mühafizəsi həmişə əmin əllərdə olub, bu gün də belədir. Şahin Mustafayev və digər rəsmi şəxslər Naxçıvanın birbaşa təhlükəsizliyində və müdafiəsində rol oynamayan insanlardır. Muxtar Respublikanın təhlükəsizlik məsələsi gündəmdə olsaydı, bölgəyə tamamilə başqa insanlar səfər edərdilər. Bu barədə rəsmi kanallara yaxın dairələrdən də bir sıra məlumatlar mediaya sızdırılır. Bununla belə, Azərbaycanın, xüsusilə də Naxçıvanın müdafiəsi yalnız bizi maraqlandıran təhlükəsizlik məsələsi deyil. Muxtar Respublika geosiyasi və strateji müttəfiqlərimizin də üzərində ciddi şəkildə dayandığı beynəlxalq layihələrin keçəcəyi dəhliz üzərində yerləşən ən mühüm coğrafi məkanlardandır. İstənilən təxribatçı hərəkətlər yalnız düşmənin məğlubiyyəti ilə nəticələnə bilər”.

> Naxçıvana səfərlər keçmişdən miras qalan yeyintiləri müəyyənləşdirmək, maliyyə yoxlamalarının nəticələrini yerində öyrənmək, yerli rəhbərliyə bəzi vacib məsləhətlər vermək məqsədi də daşıya bilər”

*Qeyd edək ki, fevralın 9-da Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfər edib. Qonaqlar səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov və digər rəsmi şəxslərlə görüşüblər.*

**Sücayət Mehti**

# Azərbaycan qardaşının yaralarını sarımağa çalışır

## “Biz Türkiyə dövlətinin, qardaş türk xalqının bu sınaqdan da şərəflə çıxacağına əminik”



**Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların sayı 20 minə yaxınlaşır. 78 mindən çox yaralı var. Geniş coğrafiyanı əhatə edən bu faciə ilk saatlardan bütün dünyanın gündəminə çevrildi. Özünü müasir sivilizasiyanın bir parçası hesab edənlər bu dəhşətli fəlakətə seyrçi qalmaq istəmədilər.**

Bütün dünya qollarını çırmalayaraq zəlzələnin fəsadlarının aradan qaldırılmasına töhfə vermək istədi. Nəticə olaraq hazırda Türkiyədə 60-dan çox ölkədən minlərlə xilasedici fəaliyyət göstərir. Etnik mənsubiyyətindən, milli maraqlarından asılı olmayaraq, bütün xilasetmə qrupları dağıntıların altından can qurtardığı zaman uşaq kimi sevinir, faciəyə şahid olduqlarında isə kədərlərini gizlədə bilmirlər. Təbii olaraq Azərbaycan da hadisəyə ilk reaksiya verən ölkə oldu. Azərbaycan Prezidentinin göstərişi ilə zəlzələdən dərhal sonra Türkiyəyə yüzlərlə xilasedici göndərildi. İndi fəlakət bölgəsində 700-dən çox azərbaycanlı xilasedicinin çalışdığı bildirilir və Azərbaycan hazırda Türkiyəyə ən çox xilasedici göndərən ölkədir. Sadə xalq da qardaş ölkəyə dar günündə bacardığı yardımı göstərməyə çalışır. Günlərdir bütün dünyada azərbaycanlıların mümkün şəkildə zəlzələ qurbanlarına yardım etməyə çalışdığını görürük. Azərbaycan vətəndaşlarının Türkiyəyə xeyriyyə məqsədi ilə köçürdüyü vəsaitin milyon dollara çatdığı bildirilir. Humanitar yardım maşınlarının isə ardı-arası kəsilmir.

Azərbaycan-Türkiyə Yüzyılı Birlik və Dayanışma Platformasının üzvü Öndər Aksoy deyib ki, zəlzələ baş verəndən indiyədək Bakıdan Türkiyəyə 88 TIR yardım göndərilib. Onun sözlərinə görə, artıq beşinci gündür zəlzələdən zərərçəkən vətəndaşlar üçün yardım toplama kampaniyası davam edir: ”Dünən 23 TIR yardım göndərmişik. Bu gün isə 20-25 TIR-ın yola salınması nəzərdə tutulur”. Aksoy geyinilmiş (ikinci əl) geyimlərin qəbul edilib-edilməməsi məsələsinə də aydınlıq gətirib. O vurğulayıb ki, gətirilən geyimlər növünə görə çeşidlənir: ”İkinci əl geyimlər ayrı, təzələri isə ayrı qutulara yığılır. İkinci əl geyimlərin nisbətən yaxşı vəziyyətdə olanları kimyəvi təmizləmədən sonra paketlənib, göndərilir. Gənclər və İdman Nazirliyi bizə çox böyük dəstək olur. Azərbaycanın digər qurumlarının da dəstəyini görürük. Azərbaycan universitetlərinin tələbələri, eyni zamanda orta məktəb şagirdləri bura könüllü olaraq gəlir və çeşidləmədə yardımçı olurlar”.

Humanitar kampaniya Türkiyə mediasının da diqqət mərkəzindədir.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə deyib ki, Azərbaycan və Türkiyə bir-birilərinin sevincinə də, acılarına da şərik çıxmaqla hər zaman bütün sınaqlardan üzüağ, şərəflə çıxmağı bacarıb. Partiya rəhbəri qeyd edib ki, qardaş ölkədə baş verən bu zəlzələ bütün azərbaycanlıları sarsıtdı:** ”Eyni zamanda Azərbaycan Türkiyənin yanında olduğunu sözdə deyil, əməldə ortaya qoydu. Azərbaycan dövləti, Azərbaycan xalqı, Azərbaycan insanı qardaş ölkəmizin üzləşdiyi dağıdıcı təbii fəlakətə dərhal öz acısı kimi reaksiya verdi. Prezident İlham Əliyev zəlzələ baş verəndən dərhal sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək və məktub göndərərək ona və bütün türk xalqına öz başsağlığı diləyini çatdırdı. Dövlət başçımızın tapşırığı ilə həmçinin Azərbaycanın müvafiq qurumları dərhal hərəkətə keçdi. Axtarış-xilasetmə qrupları zəlzələ bölgəsinə göndərildi və Türkiyədə baş vermiş zəlzələnin ağır nəticələrinin aradan qaldırılması prosesinə qoşuldu. Hazırda Azərbaycandan davamlı olaraq zəlzələ bölgəsinə həkimlər, xilasedicilər, könüllülər göndərilir. Heydər Əliyev Fondu da qardaş ölkəyə öz dəstəyini, öz həmrəyliyini nümayiş etdirdi və Fondun təşəbbüsü ilə yardım kampaniyaları başladıldı. Həmçinin vətəndaşlarımız da zəlzələdən zərər çəkən insanlara təxirəsalınmadan yardım əli uzatmağı özünün mənəvi borcu, qardaşlıq vəzifəsi hesab edir. Yaşlı insanlarımızdan tutmuş gənclərimizə, məktəblilərimizə qədər bu gün hər kəs Türkiyə üçün əlindən gələni edir. Zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı vermək üçün fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyini ziyarət edən Prezident İlham Əliyevin orada çıxışı zamanı dediyi kimi, ”Azərbaycan xalqı könüllü olaraq öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var, onu gətirir. Kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir. Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrimiz mövcuddur”.

*Ə.Hüseynov vurğulayıb ki, bütün bunlar Azərbaycan-Türkiyə dostluğunun necə möhkəm, sarsılmaz olduğunu göstərir:* ”Azərbaycan Türkiyəyə ən çox yardım göndərən, hər vasitə ilə dəstək verən ölkələrin sırasında ilk başda yer alır. Həm vətəndaşlarımız tərəfindən humanitar yardımların toplanması, həm də rəsmi qurumlarımız tərəfindən şəxsi heyət, canlı qüvvə və texnika ilə yardımların göndərilməsi durmadan davam edir. Bir sözlə, bütün azərbaycanlılar Türkiyənin acısını öz acısı kimi, Azərbaycanın acısı kimi qəbul edərək indi hər vasitə ilə qardaş ölkənin yaralarını sarımağa çalışır. Biz Türkiyə dövlətinin, qardaş türk xalqının bu sınaqdan da şərəflə çıxacağına əminik. Bizim də borcumuz ”Bir millət, iki dövlət” fəlsəfəsindən yola çıxaraq belə bir kritik dönəmdə qardaş ölkəmizə dayaq durmaqdır. Biz dövlət və xalq olaraq qardaş ölkəni onun çətin günündə tək buraxmadıq. Bu, belə də olmalıydı və Azərbaycanla Türkiyə bundan sonra da hər zaman bir-birinin yanında olmağa davam edəcək”.

**İsmayıl Qocayev**

# Ermənistan və İranın Azərbaycana qarşı təxribatı real görünür

## Mümkündür ki, belə bir təxribata zəlzələdən öncə qərar verilib



**"Ermənistan və İranın Azərbaycana qarşı təxribat hazırlığı təkcə Türkiyənin zəlzələyə görə diqqətinin bölgədən yayınmasından qaynaqlanmır. Mümkündür ki, belə bir təxribata zəlzələdən öncə qərar verilib. Sadəcə, mövcud vəziyyəti şans kimi qiymətləndirirlər". Bu barədə "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, Tehran və İrəvanda da anlayırlar ki, Azərbaycan Ordusu təxribatlara cavab vermək əzmindədir.**

O cümlədən, miqyasına görə dəhşətli olan zəlzələyə baxmayaraq, Türkiyə ordusunun proseslərə mümkün müdaxiləsi gecikməyəcək: "Burada əsas məqam Ermənistanın məqsədi və İranın təxribatda maraqlarının nə olmasıdır. İrəvanın sərhəd təxribatlarının nəyə hesablandığı aydındır. Azərbaycan Ordusunun nəzarət etdiyi strateji ərazilərdə mümkün qədər irəliləmək və ələ keçirmək, bununla da sərhədlə bağlı danışıqlarda əlini gücləndirməkdir. Eyni zamanda sərhəddə eskalasiya ilə Avropa İttifaqının missiyasının vacibliyini göstərmək, anti-Rusiyaya arqumentlərini gücləndirmək və Bakıya qarşı beynəlxalq təzyiqi gündəmə gətirməkdir. Laçın yolunda aksiya üzərindən Azərbaycana qarşı beynəlxalq təzyiq dalğasının praktiki nəticələrinə nail ola bilmədilər. Bunun səbəblərindən biri də beynəlxalq hüquqda Qarabağın Azərbaycan ərazisi kimi tanınmasıdır. Sərhəd təxribatı ilə Azərbaycanı "təcavüzkar" göstərmək imkanı daha çox ola bilər. Mümkün təxribat Fransanın Ermənistan-Azərbaycan sərhədinə jandarma qüvvələri göndərməsi üçün əsas rolunu da oynayacaq. Rəsmi Paris qərar verib, İrəvan razılaşıb. Lakin bunu eskalasiyasız həyata keçirmək Rusiyaya açıq "meydan oxumaq"dır. Bu baxımdan, təxribatla "Rusiya Ermənistanın təhlükəsizliyini qorumur" arqumentini gücləndirəcək və Aİ missiyasının əhəmiyyətinə, bu missiya tərkibində Fransa qüvvələrinin gətirilməsinə əsas yaradacaqlar".

*A.Nərimanlıya görə, İranın isə bu təxribat planında üç hədəfi var: "Birincisi, mümkün eskalasiya ilə Aİ-nin (Fransa) bölgədə varlığını legitimləşdirmək Tehrana Türkiyə, Rusiya və Azərbaycanın üçtərəfli razılaşmalar üzərindən bölgədə yaratdığı balansın pozulması baxımından lazımlıdır.* İkincisi, Tehran Ermənistana yardım və Fransanın regiondakı maraqlarına oynamaqla İrana hərbi müdaxilə ssenarisinə qarşı dəstək əldə etmək istəyir. İsrailin yaratmaq istədiyi beynəlxalq koalisiyada Fransanın da olacağı gözlənilir və İran Cənubi Qafqazdakı proseslər üzərindən Parisin neytrallığını təmin edə, o cümlədən, ermənilərin Qərbdə onun lobbiçiliyini aparacağına ümid edir. Üçüncüsü, sərhəddə genişmiqyaslı toqquşma üçtərəfli razılaşmaları arxa plana keçirə və Zəngəzur dəhlizinin aktuallığını sual altına sala bilər. Mümkün təxribat hücumu ilə İranın hərbi müstəvidə nail olmaq istədiyi hədəf də var: - Gorus-Qafan yolunun Qubadlıdan keçən hissəsinə nəzarət etmək. Bu ərazidə postun qurulduğu ilk dövrdə də İranda yola müdaxilə haqda fikirlər var idi, lakin həmin vaxt bölgədəki siyasi mənzərə sərfəli deyildi. Çünki belə bir müdaxiləyə qarşı təkcə Azərbaycan və Türkiyə yox, Rusiya da çıxacaqdı. İndi Ukrayna müharibəsinə görə Rusiyanın üzləşdiyi vəziyyət və Qərb qüvvələrinin Ermənistan üzərindən bölgəyə gəlişi bu yola müdaxilə ediləcəyi halda İranın üzləşə biləcəyi təzyiqi zəiflədir. Və istisna deyil ki, erməni əsgərlərin formasını geyinmiş İran hərbçilərinin Gorus-Qafan yolunun Azərbaycan ərazisindən keçən hissəsini ələ keçirmək ssenarisi var. İranın Ermənistandakı səfirliyinin bu gün Zəngəzur dəhlizinə qarşı verdiyi açıqlama, "Fransa jandarmalarının sərhəddə yerləşdirilməsinə" qarşı olmadıqlarını deməsi də diqqət çəkir və proseslərin analizi fonunda təxibat planı haqda informasiyanın doğruluq payını artırır".

**İsmayıl**



**"Ukrayna Prezidenti Volodimir Zelenskinin Avropa turnesinə çıxması ölkənin hərbi aktivlərinin alternativ axtarışlarla canlandırılmasına xidmət edir".**

**Bu barədə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspertin sözlərinə görə, Ukraynanın oktyabr ayında qazandığı ərazi nailiyyətinin davamının gəlməməsi, Rusiyanın Donetskdə hücumlarını davam etdirməsi Kiyevin taleyini sual altında saxlayır.**

# Kiyevin taleyi də sual altındadır

## Zelenski isə inadkar qamətini göstərməkdə israrlıdır

Bu azmış kimi, Rusiyanın yeni irimiqyaslı hücuma hazırlaşdığı iddiaları informasiya məkanlarının "bəzəyi"nə çevrilir: "Zelenski isə inadkar qamətini göstərməkdə israrlıdır - Ukrayna qalib gəlməlidir. Zelenski müharibənin elə yekunlaşmasını istəyir ki, Ukraynanın ərazi bütövlüyü bərpa edilsin. Yəni o, 2022-ci ilin 24 fevralına qədərki vəziyyətlə barışmayan xəttə sadiqliyini göstərir. Bu sadiqlik döyüş meydanında praktiki nəticələrlə yekunlaşmalıdır, təbii ki, hər şeyin tempi normal və axarında olsa. Zelenskinin Böyük Britaniyaya, ardınca Fransaya səfəri Ukrayna üçün çətinliklərin artdığı vaxta təsadüf edir. Ukraynanın cəbhədə taktiki irəliləyiş əldə edə bilməməsini ölkənin hərbi-siyasi kuluarlarındakı böhran müşayiət edir. İstefalar, güc strukturlarındakı yerdəyişmələr buna bariz nümunədir, hərçənd ki, Ukrayna daxildəki siyasi qalmaqalların döyüş meydanına təsir etməməsinə çalışır.

Ukrayna lideri nail olunacaq məqsədlərin konturlarını dəqiqləşdirmək üçün Londona və Parisə getdi. Zelenski Britaniyanın Baş naziri Rişi Şunak, Fransada Prezident Emmanuel Makron və Almaniya Kansleri Olaf Şoltsla görüşməklə Ukraynaya cəbhədə real qələbə qazandıra biləcək silahların idxalına cəhdlər edir.

Zelenskinin Qərblə bağlı narahatlıqları da artır, o düşünür ki, NATO ölkələri silah tədarükündən yorulub qırılma nöqtəsində Ukraynanı Rusiya ilə baş-başa buraxa bilərlər".

**A.Kərimov vurğulayıb ki, Britaniya Ukraynadakı müharibənin Rusiyanın çöküşü ilə nəticələnməsini istəyən əsas oyunçudur. Onun çoxməqsədli hədəfləri var:** "Niyyəti "Böyük Britaniya-2030" strateji doktrinasının tələblərindən irəli gələn öhdəliklərə sadiqlik göstərməkdir. Böyük Britaniya Avropa İttifaqından çıxsa da, qoca qitənin təhlükəsizliyində əsas zəmanətçidir və bufer zona kimi baxdığı regionun Rusiyanın çubuğu altında idarə olunmasına qarşıdır. Britaniya Avropanın təhlükəsizlik arxitekturası ilə Ukraynadakı müharibənin nəticələri arasında əlaqə qurur. Buna görə də o, Kiyevə yardım etmək məcburiyyətindədir. Britaniya Ukrayna hərbçilərinin hazırlanması üçün kömək öhdəliklərini icra edir. Lakin o, Kiyevə döyüş təyyarələrini verməkdən yayınır. Zelenski eyni ricanı ABŞ və Fransaya da edir. Ancaq onlar Rusiyanın hərbi eskalasiyanın sərhədlərini Ukraynanın hüdudlarından kənarda genişləndirmək potensialından ehtiyatlanaraq Ukraynaya lazımi "qida"ları vermirlər. Zelenski Fransa və Almaniyaya da gözünü dikib, məqsəd onları Rusiyanın maraqlarına xidmət edən addımlardan çəkindirməkdir. Zelenski Makron və Şoltsla görüşündə Fransa və Almaniyanın oyunu dəyişdirmək potensialına malik olduğunu deməklə bir növ liderlərə söz atıb.

Almaniyanın Rusiyadan qorxuları haradasa başadüşüləndir. Amma Zelenski ən çox Fransanın oyunlarından təngə gəlib. Ona görə ki, Fransa Avropa İttifaqında yeganə nüvə dövləti olsa da, o, Moskva ilə isti münasibətləri bərk-bərk mühafizə edir.

Ümumilikdə Almaniya ilə Fransanın Ukraynanı dəstəkləməkdə çox ləng davranmaları fərqli meyarlarla tənqidlərə layiqdir. Zelenski Londonda və Parisdə isti qarşılansa da, bu hələ Ukraynadakı Rusiya hərarətini soyutmaq qabiliyyətində deyil".

*Analitik bəyan edib ki, Ukraynaya Rusiyanı döyüş meydanında geri oturda biləcək silahlar və NATO-nun Moskvanın nüvə şantajlarına boyun əyməməsi lazımdır:* "Düzü, NATO-nun Rusiyadan, Rusiyanın da Alyansdan qorxduğu məqamlar çoxdur. Amma bu qorxuları basdırmaq lazımdır ki, tərəflərdən birinin əlində fürsət yaranmasın. Bir-birilə rəqabətin əks uclarında dayanan Moskva və NATO-nu, əsasən, nüvə məsələsi qorxudur. Qorxunun təsvirini belə cıza bilərik: Görəsən, "X" anında, yəni nüvə silahı atılsa, bunun qarşılığı necə verilməlidir? İkinci qorxu da NATO-nun sinirlərini qıcıqlandırır. Görəsən, Rusiya Ukraynada məğlubiyyətə uğrasa, Avropanın hansı nöqtələrini qaynadacaq? Suallar saysız, cavablar isə çoxmənalıdır...".

**İsmayıl**

# Azərbaycanda koronavirus bitmək üzrədir

## Mərdan Əliyev: "Kollektiv immunitet formalaşıb, son vaxtlar yüksək göstərici qeydə alınmır"



**Yanvarın 9-dan fevralın 5-dək olan müddətdə 10 milyondan artıq insan COVID-19-a yoluxub, onların 90 mindən çoxu vəfat edib.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, əvvəlki 28 günlə müqayisədə infeksiya nəticəsində həyatını itirənlərin sayı 8 faiz, yoluxma halları isə 89 faiz azalıb.

Dünyada son dörd həftə ərzində 10 458 265 yoluxma və 90 520 ölüm halları qeydə alınıb.

Son 28 gündə ən çox yoluxma Çində (3 485 265) aşkar edilib. Bunun ardınca Yaponiya (2 429 215), ABŞ (1 328 65736), Koreya Respublikası (736 811) və Braziliya (389 444) gəlir. Çində yanvarın 9-dan fevralın 5-dək olan müddətdə ən çox ölüm halı (40 812) qeydə alınıb. Daha sonra ABŞ (15 294), Yaponiya (9 874), Böyük Britaniya (2 671) və Braziliya (2 566) yer alıblar.

Azərbaycanda koronavirusla bağlı indiki vəziyyəti şərh edən infeksionist-həkim Mərdan Əliyev "Şərq"ə bildirib ki, ölkədə vəziyyət stabildir: "Kollektiv immunitet formalaşıb. Son vaxtlar yüksək göstərici qeydə alınmır. Bəzi ölkələrdə problem qalmaqdadır. Lakin dünyanın bir çox ölkələrində, eyni zamanda Azərbaycanda koronavirus bitmək üzrədir. Pandemiyanın tam nə vaxt bitəcəyini isə proqnoz kimi deyə bilmərəm. Hazırda ölkəmizdə qrip epidemiyası mövcuddur. Hər kəs xəstələnir. Bu barədə çox suallar verilirdi. Koronavirusun yeni variantı olduğunu düşünürdülər. Elə deyil, çünki yaxma analizi göndərəndə COVİD-19 neqativ çıxmışdı".

**Aygün Tahir**

# Dəymiş ziyan 100 milyard dolları ötəcək

## Zəlzələ bölgəsində 7 min bina sadəcə tam dağılandır

**Fevralın 6-da Türkiyədə baş verən zəlzələ ölkənin 10 vilayətində böyük dağıntılar törədib. Türkiyə mediasında yayılan statistik məlumatlara görə, zəlzələ ərazilərində toplam 13.5 milyon insan yaşayır. Bu isə ölkə əhalisinin 15.7 faizi deməkdir. Dağıntılar nəticəsində minlərlə insan həyatını itirib. Dağılan bina sayı da minlərcədir. On minlərlə sakin çöküntülərin altında qalıb.**

Yaşanan humanitar faciəyə biganə qalınmayıb və 40-dan çox ölkə Türkiyəyə canlı qüvvə və yardım göndərib. Dağıntının miqyası böyükdür, yalnız yaşayış binaları deyil, xəstəxana və məktəblər, ictimai tikililər, yol və nəqliyyat infrastrukturları, iş yerləri də dağılıb.

Baş verən fəlakət təkcə insan itkiləri deyil, ciddi iqtisadi itkilər də doğurub. Ekspertlərin fikrincə, zəlzələnin ölkə iqtisadiyyatına təsirinin tam aradan qaldırılması illər çəkəcək. Türkiyə hökuməti təcili yardım fəaliyyətinə, ilkin olaraq, 100 milyard türk lirəsi dəyərində büdcə ayırıb. Bu, təxminən 9 milyard manat vəsait deməkdir. Bölgədə dağıntılar və qurtarma işləri hələ də sürdüyündən dəyən zərərin tam hesablanması indilik mümkün görünmür.

Dəhşətli zəlzələnin istehsalın artım tempinin ləngidəcəyi, eləcə də milyardlarla lirə yenidənqurma xərcləri yaradacağı da istisna edilmir.

Qeyd edək ki, qlobal kredit reytinqi agentliyi Fitch Ratings, Türkiyə və Suriyaya təsir edən zəlzələlərdə sığortalanmamış zərəri ölçməyin çətin olduğunu, lakin itkilərin 2 milyard dolları, hətta 4 milyard dollara çata biləcəyini açıqlayıb.

Fitch Ratings, Türkiyə və Suriyaya təsir edən zəlzələlərdə sığorta zərərləri ilə bağlı hesabatında qeyd edib ki, bölgələrdə sığortadan istifadənin aşağı olması səbəbindən sığortalanmış zərərlər "çox aşağı"dır və təxminən 1 milyard dollara çata bilər. Digər tərəfdən, qeyd olunub ki, sığortalanmış zərərlər təkrarsığorta yolu ilə böyük ölçüdə kompensasiya olunacaq.



İqtisadçı-ekspert Eyyub Kərimli Trend-ə açıqlamasında bildirib ki, Türkiyə Statistika Qurumunun bu həftə açıqladığı məlumatlara görə, zəlzələ bölgəsindəki 10 əyalətdə 13,42 milyon insan yaşayır və bu, ümumi əhalinin 15,7 faizini təşkil edir.

"TÜİK-in 2021-ci il məlumatlarına görə, zəlzələdən zərər çəkmiş 10 əyalətdən ibarət bölgənin ÜDM-dəki payı 9,3 faiz təşkil edir. Sektorlar üzrə zəlzələ zonasının kənd təsərrüfatında payı 14,3 faiz, sənayedə payı isə 11,2 faiz təşkil edir ki, bu da ÜDM-in payından yüksəkdir". Turizm sektoruna gəldikdə isə ümumi turistlərin təxminən 1 faizi zəlzələdən zərər çəkmiş bölgəyə gəldiyi üçün bölgənin bu sektora təsiri azdır. Lakin xarici ticarət məlumatlarını təsir kimi nəzərə alsaq, zəlzələdən zərər çəkmiş bölgə Türkiyənin ümumi ixracının 8,5 faizni, idxalının isə 6,7 faizni reallaşdırır. Türkiyə ixracının 4,4 faizni Qaziantep, 1,6 faizni Hatay və 1,2 faizni Adana həyata keçirir. İqtisadçılar il ərzində bölgədən ixracatda bir neçə milyard dollar itki gözlədiklərini, lakin oxşar təsirin idxalda da görüləcəyi üçün ümumi xarici ticarətə təsirinin zəif qalacağına diqqət çəkdilər. İqtisadçılar sektor təsirlərinin makro təsirlərdən başqa görülə biləcəyinə diqqət çəksələr də, xalis effekti anlamaq üçün daha çox vaxt lazımdır.

Ekspertin sözlərinə görə, minlərlə insan hələ də dağıntılar altında qaldığı, sağ qalanların bir stəkan suya belə çata bilmədiyi zəlzələdən sarsılan 10 vilayət Türkiyənin sənaye və kənd təsərrüfatı istehsalının dinamikləri sırasındadır. Bölgədəki bir çox fabrik də dağıdılıb: "Kahramanmaraş, Qaziantep, Hatay, Adıyaman, Malatya, Osmaniye, Adana, Kilis, Şanlıurfa və Diyarbəkir 13,5 milyonluq Türkiyə əhalisinin yüzdə 16-sını təşkil edir. Bu ərazilər iqtisadi böyüklüyü baxımından Türkiyə iqtisadiyyatının onda bir hissəsidir. Sənayedən toxuculuğa, poladdan heyvandarlığa qədər bir çox fərqli sektorda istehsalın edildiyi bölgənin ixracatı 20 milyard dolların üzərindədir. Zəlzələnin episentri olan Kahramanmaraş Türkiyənin bir nömrəli iplik, parça və mətbəx əşyaları istehsalçısıdır. Şəhər ixrac edən əyalətlər arasında 17-ci yerdədir. Qaziantep, xüsusilə Yaxın Şərq ölkələrinin tədarükçüsüdür. Son illərdə turizmə hücum edən Qaziantep həm də türk qastronomiya turizminin paytaxtıdır. İskəndərun və Mersin limanları bölgədən malların daşınması və idxalının mərkəzidir. Lakin ilk gündən limanlardakı yanğını söndürmək mümkün olmadığından daşıma başlaya bilməyib".

**İqtisadçı ekspert Eldəniz Əmirov da "Şərq"ə açıqlamasında deyib ki, Türkiyəyə dəymiş zərərin "Fitch Ratings" Agentliyi tərəfindən 4 milyard dollar həcmində qiymətləndirilməsi birmənalı qəbul edilə bilməz:** "7 000-ə yaxın bina dağılıb, yollar yoxa çıxıb, infrastruktur məhv olub, istehsal sahələri yerlə-yeksan olub, dəyər zəngirinin əsaslı hissəsi sıradan çıxıb, təchizat prosesi dayanıb və s. Maddi zərər yaradan səbəblər hədsiz çoxdur. Hələ insanların mülkünə, şəxsi əşyalarına, nə qədər binanın zədələnməsinə dair məlumat yoxdur. 7 min bina sadəcə tam dağılan binadır. Odur ki, dəymiş ziyanın 100 milyard dollara çatacağını, hətta bunu ötəcəyini belə istisna etmirəm.

Mənəvi zərbənin təsiri heç də maddidən az deyil. Həlak olanların sayı durmadan artır. Say onminlərlə ölçüləcək. İndiki rəqəmlərdə olanlar cansız bədənləri tapılanlardır. Qeyri-rəsmi məlumata görə, dağıntılar altında 190 minədək insan insan qalıb. Dəhşətli soyuq hava və zamanın uzanması dağıntılar altından insanların sağ çıxarılma ümidlərini azaldır. Bu sarsıdıcı faciədir və bunun mənəvi zərbəsi maddidən çoxdur".

Ekspertin sözlərinə görə, dəymiş zərər Türkiyə ÜDM-nin 10 faizni ötə bilər. 2022-ci ildə Türkiyənin ÜDM-i 853.49 milyard dollar olub. Bu il isə bunun 941.55 milyard dollar olması proqnoz edilib. Lakin zəlzələ bu proqnozun da gerçəkləşməsinə imkan verməyəcək: "Türkiyənin 2023-cü ildə büdcə xərcləri 4 trilyon 470 milyard TL, büdcə gəlirləri isə 3 trilyon 810 milyard TL proqnoz edilib. 660 milyard 901 milyon TL isə büdcə kəsiri proqnoz edilib. Bu isə hazırkı kursla 237 milyard dollar xərc, 202 milyard dollar gəlir, 35 milyard dollar kəsr deməkdir.

Rəqəmlərdən göründüyü kimi dəymiş ziyan 100 milyard dollar olarsa, bu Türkiyənin ÜDM-nin 12 faizə qədəri deməkdir. Eyni zamanda illik büdcə gəlirlərinin təxminən yarısına, daha dəqiq 49,55 faiznə bərabər olacaq. Bu xərcləri qarşılamaq illik büdcə kəsrini qapatmaq üçün lazım olan vəsaitdən təxminən 3 dəfə çoxdur. Odur ki, dəymiş ziyanı yalnız büdcə vasaitləri hesabına aradan qaldırmaq mümkün olmayacaq. Hətta büdcə kəsrinin indikindən ortalama daha 20 faiz artırılması belə, bu işlər üçün 12 il zaman tələb edəcək. Buna görə də əlavə maliyyə mənbələrinə ciddi ehtiyac yaranacaqdır. Amma təbii ki, bu qardaş ölkənin taleyində hansısa ciddi anlamda dəyişikliyin baş verməsi demək deyil. Düzdür, Türkiyə sevməyənlər nəyəsə nail olmaq istəyənlər, amma Türkiyə kimi dövləti bir zəlzələnin yaratdığı fürsətlə sarsıtmaq mümkün deyil. Sadəcə bu zəlzələ Türkiyəni öz strateji hədəflərində bir neçə il ləngidəcək. Lakin missiya və strategiyanın dəyişməyəcəyi dəqiqdir".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**




# İrəvan prinsipial olaraq Bakının təkliflərini qəbul edib

## Yazda Azərbaycanla sülh müqaviləsini özündə ehtiva edən yeni sənədlərin imzalanacağı gözlənilir

**Rusiya və Ermənistan xarici işlər nazirləri Sergey Lavrov və Ararat Mirzoyan arasında telefon danışığı olub. Erməni tərəfinin təşəbbüsü ilə baş tutan telefon danışığı zamanı ikitərəfli gündəliyin bir sıra aktual məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Nazirlər Moskva ilə İrəvan arasında müttəfiqliyi möhkəmləndirmək üçün qarşılıqlı niyyətlərini bildiriblər.**

Bundan əlavə Lavrov və Mirzoyan Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması problemlərini müzakirə ediblər. Rusiya tərəfi üçtərəfli sazişlərin ən yüksək səviyyədə icrası üzrə işlərin sürətlə bərpasının, o cümlədən regionda bütün nəqliyyat və iqtisadi əlaqələrin bərpa olunmasının, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası, İrəvan və Bakı arasında sülh müqaviləsinin parametrlərinin razılaşdırılması, habelə ictimai xadimlər, ekspertlər və parlamentarilər arasında dialoqun təşviqinin vacibliyini vurğulayıb.

Əvvəl Brüsselə, sonra Berlinə səfər etmiş Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın görüşləri ilə bağlı diqqətçəkən epizodlar da yayılıb. Mirzoyan Brüsseldə AB və Avropa Parlamentinin nümayəndələri ilə görüşlərdə "üreyini açmaq" qərarına gəlib. O, Ermənistan hakimiyyətinin geosiyasi üstünlükləri, Qarabağ "problemi" ilə bağlı planları barədə açıqlama verməyə çalışıb. Eyni zamanda Mirzoyan bütün bunları avropalılar üçün xoş gələn geosiyasi kurs çalarları ilə doldurmağa cəhd edib. O, Ermənistanın neytral mövqeyini və ittifaqdan kənar iş tərzini dəfələrlə vurğulayıb. Erməni mənbələri qeyd edirlər ki, Avropa rəsmiləri XİN rəhbərinin bu çıxışlarına laqeydlik nümayiş etdiriblər. Onlar əslində bu detalları Avropanı maraqlandırmadığına və belə görüşlərdə bu kimi monoloqların yersiz olduğuna eyham vurublar. Mirzoyan görüşlər zamanı rəsmi Bakını ittiham edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin idarəsinin rəisi Ayxan Hacızadə Almaniyada səfərdə olan Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Azərbaycanın danışıqlar prosesinə maneçilik törətdiyini, buna baxmayaraq, Ermənistanın sülh prosesinə sadiq olduğunu və bir neçə gün əvvəl Azərbaycan tərəfindən təqdim edilmiş sülh sazişi üzrə təklifləri nəzərdən keçirməsi ilə bağlı bəyanatına münasibət bildirib. Onun sözlərinə görə, Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın istinad etdiyi təkliflər bir neçə gün deyil, 15 gün bundan əvvəl Azərbaycan tərəfindən təqdim edilib: "Bununla yanaşı, Ermənistan xarici işlər nazirinin bu bəyanatından göründüyü kimi, Ermənistan tərəfi sülh sazişi üzrə danışıqlar prosesi barədə yenidən manipulyasiyaya yol verir və özünü konstruktiv tərəf kimi təqdim etməklə, beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır. Məlum olduğu kimi, məhz Ermənistan tərəfi sülh sazişi üzrə danışıqlar prosesinin razılaşdırılmış gedişatını pozaraq, ötən ilin dekabr ayında danışıqlardan imtina edib. İndi isə sülh sazişi üzrə danışıqlara qayıtmaq əvəzinə prosesə süni manеələr yaradır. Azərbaycan Ermənistandan fərqli olaraq sülh sazişinin mətni üzrə danışıqların qısa müddət ərzində keçirilməsinin tərəfdarıdır və buna hər zaman hazırdır".

Rusiyalı politoloq Sergey Markov deyib ki, təxminən iki il yarımdan sonra rus sülhməramlıları mandatını itirərək, Qarabağı tərk edəcəklər. Ərazinin nəzarəti isə Ermənistan ordusundan qat-qat güclü olan Azərbaycan orduruna keçəcək. Ermənistan hakimiyyəti öz ordusu ilə Azərbaycan ordu qüvvələrinin qarşısını ala bilməyəcəyini yaxşı bilir. Buna görə də istəyir ki, başqa biri ölkəsinin maraqları üçün mübarizə aparsın. Markov qeyd edib ki, Ermənistan hakimiyyətinin əsas ümidi rus ordusuna idi: "İrəvan hesab edirdi ki, Rusiya daha çox erməni mövqeyini dəstəkləyəcək. Və bu dəstəyi almaq üçün İrəvan müxtəlif şəkildə cəhd etdi. Hətta Qarabağ uğrunda mübarizəni Azərbaycanla Ermənistanın davası kimi yox, Türkiyə ilə Rusiyanın mübarizəsi kimi qələmə verməyə çalışdı. Amma İrəvanın bu planı baş tutmadı. Rus cəmiyyəti Qarabağı Ermənistan və Azərbaycanın mübarizəsi kimi tanıyır. Kreml bitərəf mövqe tutmalı olduğunu anlayır və bu baxımdan da rus sülhməramlılar neytral mövqedədir. Bütün bunlara görə də Ermənistan ABŞ-yə, NATO-ya və AB-yə doğru getdi. İrəvan rus sülhməramlıları fransızlar və ya AB-nin təsirində olan başqa ölkələrin hərbçiləri ilə əvəz etmək istəyir. Aydındır ki, Paşinyan bu istəyini reallaşdırmaq üçün çox cəhd edəcək. Amma onların cəhdləri iki ciddi müqavimətlə üzləşəcək. Birincisi, Azərbaycanın müqaviməti ilə. Rəsmi Bakının razılığı olmadan onun suveren ərazisinə - Qarabağa hansısa sülhməramlıların göndərilməsi mümkün deyil. Azərbaycan isə buna razılıq verməyəcək. İkincisi isə Ermənistan Kremlin müqaviməti ilə üzləşəcək. Rusiya Cənubi Qafqazda, yeni Qarabağda sülhməramlı rolunda Fransa və ya ona düşmən olan digər NATO ölkələri ilə əvəz olunmasını qətiyyən istəmir".

**Politoloq Məhəmməd Əsədullazadə deyib ki, yaz aylarında Ermənistanda keçiriləcək konstitusiya referendumundan sonra Azərbaycanla sülh müqaviləsini özündə ehtiva edən yeni sənədin imzalanacağı gözlənilir. Ekspert Ermənistan-Azərbaycan gərginliyi ətrafındakı son gəlişmələrə diqqət çəkib:** "Azərbaycanla Ermənistan arasında konfedensial (gizli) danışıqlar gedir. Zənnimcə, Ermənistan tərəfindən danışıqları bu ölkənin təhlükəsizlik xidmətinin katibi Armen Qriqoryan aparır. Ermənistan prinsipial olaraq Azərbaycanın təkliflərini qəbul edib. Tərəflər arasında ABŞ-nin vasitəçiliyi ilə danışıqlar gedir. Bunun davamı olaraq, qarşıdakı aylarda Tbilisidə liderlərin görüşünün keçirilməsi istisna deyil. Ermənistan Baş naziri Paşinyan ABŞ-nin vasitəçiliyində maraqlıdır və bu kontekstdə Gürcüstanın paytaxtında mümkün görüşə hazırdır. Artıq ötən günlərdə Ermənistandan verilən açıqlamada Tbilisi görüşünə müsbət baxdıqları vurğulanıb".

*Analitik qeyd edib ki, Rusiya növbəti dəfə bölgədə sülhyaratma prosesini pozmağa çalışacaq:* "Rusiya yenə danışıqları pozmaq üçün xarici işlər nazirlərinin Moskvada görüşünü təşkil etməyə çalışır. Amma İrəvan belə bir görüşdə maraqlı deyil. Artıq bir dəfə Lavrovun təşəbbüsü ilə keçirilən görüşə qatılmaqdan imtina ediblər. Bu, hələ də Rusiyada müzakirə mövzusudur. Lavrov və Zaxarova az qala hər açıqlamalarında bunu İrəvana xatırladırlar. Lavrovun sözçüsü Zaxarovanın Ermənistana ünvanladığı son açıqlamalarından biri isə hədələyici tonda idi. Kremlin səylərinə baxmayaraq, Paşinyan ölkəsini Rusiyadan uzaqlaşdırmaqda israrlı və istəkli görünür. Bunun yolu isə Azərbaycanla sülh müqaviləsinin imzalanmasından keçir. Hesab edirəm ki, yaz aylarında Ermənistanda keçiriləcək konstitusiya referendumundan sonra Azərbaycanla sülh müqaviləsini özündə ehtiva edən yeni sənədlərin imzalanacağı gözlənilir".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Sərnişin axını 420 min nəfər olub

## Bakı Aeroportu bu il rekord sayda sərnişinə xidmət göstərib

**Bu ilin ilk ayında Azərbaycanın əsas hava limanı - Heydər Əliyev Beynəlxalq Aeroportu 360 min sərnişinə xidmət göstərib ki, bu da əvvəlki illərin yanvar ayı üzrə rekord göstəricidir.**

Bu barədə Heydər Əliyev Beynəlxalq Aeroportundan bildirilib. Məlumata görə, 2023-cü ilin əvvəlindən ölkənin bütün beynəlxalq hava limanlarının sərnişin axını 420 min nəfərdən çox təşkil edib.

Qeyd olunan müddət ərzində milli aviadaşıyıcılar AZAL və "Buta Airways" müvafiq olaraq 132 min və 47 min sərnişin daşıyıb. Beynəlxalq uçuşlarda milli aviaşirkətlərinin payı 37 % təşkil edib. 2023-cü ilin yanvar ayında Heydər Əliyev Beynəlxalq Aeroportuna 27 xarici aviaşirkət müntəzəm uçuşlar həyata keçirib. Ən çox sərnişin "Turkish Airlines", "Aeroflot", "Utair", "Azimuth" və "flyDubai" aviaşirkətləri ilə daşınıb.

Yanvar ayı ərzində Bakıdan ən populyar beynəlxalq istiqamətlər onluğuna İstanbul, Moskva, Dubay, Tbilisi, Əbu-Dabi, Ankara, Mineralnıye Vodı, Ciddə, Şarja və Daşkənd daxil olub. Ümumilikdə bu istiqamətlər üzrə 221 min sərnişinə xidmət göstərilib.

Qeyd edək ki, Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) - sərnişin və yük daşımalarının, uçuş-enmə əməliyyatlarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük kompleksinin gücünə görə Azərbaycanda və regionda ən böyük hava limanıdır.

2022-ci ilin iyun ayında Heydər Əliyev Beynəlxalq Aeroportu nüfuzlu "Skytrax World Airport Awards" beynəlxalq agentliyinin versiyasına görə MDB ölkələrində ən yaxşı hava limanı statusunu beşinci dəfə təsdiqləyib. Hava limanları üçün bu mükafat sənayedə keyfiyyət standartıdır.

# Naxçıvanda məktəb binasının çökməsi ilə bağlı cinayət işi başlanıb



**Naxçıvan Muxtar Respublikasında məktəb binasının çökməsi ilə bağlı cinayət işi başlanıb.**

Bu barədə "Report"a muxtar respublikanın prokurorluğundan məlumat verilib. Belə ki, Babək rayon Nehrəm qəsəbəsi 3 saylı tam orta məktəbdə aparılan yenidənqurma işləri zamanı 31 mart 2022-ci il tarixdə binanın bir hissəsinin çökməsi nəticəsində dörd nəfər şəxsin ölməsi, bir nəfərin isə xəsarət alması faktı ilə bağlı rayon prokurorluğunda araşdırma aparılıb. Araşdırmanın nəticəsində cinayət işinin başlanmasının rədd edilməsi barədə qərar qəbul edilib. Daxil olmuş vətəndaş müraciəti əsasında araşdırma materialı Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öyrənilib və həmin qərar fevralın 8-də ləğv edilərək Cinayət Məcəlləsinin 222.4-cü (tikinti işlərinin aparılmasının təhlükəsizlik qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsilə cinayət işi başlanıb.

İbtidai istintaq davam etdirilir.

# Dəhşətli faciədir

## Anasını qətlə yetirmiş yeniyetmənin psixoloji vəziyyəti müəyyənləşməlidir

**Bakıda yeniyetmə anasını qətlə yetirib. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, hadisə Xətai rayonunda qeydə alınıb. 46 yaşlı Solmaz Mansurovanın meyitinin üzərində kəsilmiş-deşilmiş yaralar olub. Anasının qətlində şübhəli bilinən 15 yaşlı yeniyetmə saxlanılıb. Oxşar cinayətlər təəssüf ki, ara-sıra baş verir.**



**"Övlad necə bir ruhi, psixi vəziyyətdə olmalıdır ki, valideyninə əl qaldırsın?!"**

Qız övladının anasını, nəvənin nənə və ya babasını, yaxud da oğulun anasını qətlə yetirməsi hadisələri ilk növbədə ailədaxili münasibətlərdə dərin çatlar olduğunu göstərir. Təsəvvür etmək çətindir ki, övlad valideyni necə qətlə yetirə bilər? Valideyn nə qədər sərt, tələbkar, övladın düşüncəsiylə lap qəddardırsa da, insan hansı keyfiyyətə malik olmalıdır ki, ona əl qaldırsın? Bu cür hallarda təkcə ailədaxili münaqişələr deyil, həm də yeniyetmə və gənclərin zərərli vərdişlərə aludə olması, narkotik maddə asılılığı da düşünülür. Son zamanlarda hətta orta məktəb şagirdlərinin narkotik maddələrə cəlbinə çalışanların, məktəblərin qarşısında psixotrop həblər satmağa səy göstərənlərin hüquq-mühafizə orqanları tərəfindən müəyyənləşdirilərək həbs olunması probleme daha diqqətli yanaşmanı tələb edir.

**"Şərq"ə açıqlamasında psixoloq Elnur Rüstəmov baş vermiş hadisəni dəhşətli cinayət adlandırdı. Psixoloq belə bir cinayətə gətirib çıxaracaq səbəblərin müxtəlif ola biləcəyini vurğuladı:**

- Baş vermiş qətl hadisəsi böyük bir faciədir. Övlad necə bir ruhi, psixi vəziyyətdə olmalıdır ki, valideyninə əl qaldırsın?! Ana ilə övlad arasında biolojidən, genetikdən əlavə möhkəm ruhi, emosional bağlantı olur. Xüsusən oğlan uşaqları ilə analar arasında. Adətən qız uşaqları daha çox ataya bağlı olur, oğlan uşaqları isə anaya. Nə baş verir ki, bu bağ qopur və belə bir dəhşətli cinayət baş verir? Bu, dərin psixoloji-sosioloji araşdırma tələb edən məsələdir. Onu deyə bilərəm ki, bu cür hadisələr spontan baş vermir. Dəqiq olan budur. Həmin ailənin vəziyyəti, valideynlə övlad arasındakı münasibətlər araşdırılsaydı, görünərdi ki, ailədə fərdlər arasında uzun zamandan bəri anlaşılmazlıq var. Ailədaxili münasibətlərdə problemlər yaşanıb, lakin onlar həll edilməyib. Getdikcə daha da dərinləşib, valideynlə övlad arasında sərhəd qalxıb, birbirinə ağır sözlər deyiblər, ağır ifadələr işlədilib, nəhayət, qətl hadisəsi baş verib. Yeniyetməlik çağında qəzəb, qısqanclıq hissinin olması təbiidir. Oğlan uşaqları anaların qısqanır, qız uşaqları ataların. Sadəcə, düşüncəli ailələrdə valideynlər qısqanclıq hissini sevgiyə, mərhəmətə, yardımlaşmaya transfer edə bilirlər. Övladının ruh halından anlamayanlar, keçid dövrünün təlatümləri haqqında bilgisiz olanlar, ya da ümumiyyətlə bunu mənasız, lazımsız hesab edərək müdaxiləyə lüzum görməyənlər övladlarını itirə bilir. Demirik, bütün yeniyetmələr potensial cinayətkardır, xeyr. Onu deyirik ki, valideyn övladının böyüməsi və tərbiyəsi ilə bütün yaş dövrlərində ciddi məşğul olmalıdır. "Uşağı böyütdüm, məktəbə getdi, işim bitdi", olmamalıdır. Xüsusilə yeniyetməlik dövrü çətindir, bu dövrü uşaqlar çox çətin keçirir, bəd niyyətli insanların təsiri altına düşə bilirlər, zərərli vərdişlərə yiyələnirlər. Valideyn diqqətli olmalı, övladının sağlam həyat keçirdiyinə əmin olmalıdır.

**E.Rüstəmov qeyd etdi ki, anasını qətlə yetirmiş yeniyetmənin psixoloji vəziyyəti müəyyənləşməlidir:**

- Bu yeniyetmənin psixoloji problemlərinin olması ehtimalı üzərində dayanılmalıdır. Adi ruh halında kimsə qətl törətməz. Bir insanın ruh halında kəskin dəyişiklik baş verməlidir ki, o, qətl törətsin. Yaxud da insan anlaqsız vəziyyətdə, nəyinsə təsiri altında olmalıdır. İndiyədək bir çox qətl, soyğunçuluq, oğurluq hadisələrində şübhəli bilinərək həbs edilənlərin, məsələn, narkotik maddə, ya da spirtli içkinin təsiri altında bu əməlləri etdiyi məlum olub. Hətta nəvələr nənə və babalarına xəsarət yetiriblər, sonra məlum olub ki, şəxs narkotik aludəçisidir, pul tələb edirmiş nənəsindən, babasından, valideyndən. Qısqanclıq zəminində də qətl hadisələri törədilir. Burada da valideynin övladını anlamaması, onun psixi durumundan xəbərsiz olması vəziyyəti gərginləşdirir. Ailədə yeniyetmə, gənc varsa, valideyn həm öz hərəkətlərinə, həm də övladının davranışlarına nəzarət etməlidir. Təəssüf ki, hazırda məktəblərdə də yeniyetmələrə psixoloji söhbətlər aparılmır. Valideynlər də maarifləndirilmir, öz üzərlərində də çalışmırlar, yeniyetmə ilə necə davranılmalıdır bilmirlər, öyrənməyə cəhd də etmirlər.

**Məlahət Rzayeva**

# Dövlətə də xeyirdir, vətəndaşa da

## Alış-veriş edən vətəndaşlarımız üçün ƏDV-nin 15 deyil, 17,5 faizi geri qaytarılır



***"Yaxşı olar ki, vətəndaşlara məxsus plastik kartlar digər ölkələrə səfərlər zamanı da işlək olsun"***

**Son beş il ərzində Azərbaycanda kartla ödəmələrin həcmi 14,1 dəfə, 2022-ci ildə isə 2021-ci illə müqayisədə 2,2 dəfə çox artıb. Bu barədə Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev "Heydər Əliyev və Azərbaycanın vergi sistemi: Yeni çağırışlara doğru" konfransında deyib.**

"Qeyd etmək istəyirəm ki, 2022-ci ildə nağdsız ödənişlər ümumi dövriyyənin 43,5 faizini təşkil edib", - o deyib. Z.Nuriyev 2022-ci ilin yekunlarına əsasən, Azərbaycan banklarının kredit portfelinin 19,6 milyard manat olduğunu, hesabat dövründə banklardakı depozitin 33,8 milyard manat təşkil etdiyini qeyd edib. "Bu göstəricilər əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə artıb. Hesab edirəm ki, bu cür dinamik artımın əsasında bankların aktiv şəkildə tətbiq etdiyi rəqəmsallaşma dayanır", - o deyib. Z.Nuriyevin sözlərinə görə, ötən il ABA hüquqi bazanın optimallaşdırılması istiqamətində 80-dən yuxarı addım atıb. "Bu il ölkəmizin maliyyə sektorunun sadələşdirilməsinə və sürətli inkişafına yönəlmiş qanun layihələrinin qəbul ediləcəyini gözləyirik", - o əlavə edib.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında kartla ödənişlərə üstünlük verilməsinin səbəblərini açıqladı:**

- Xatırladım ki, yanvarın 1-dən Vergi Məcəlləsində yeni dəyişikliklər qüvvəyə mindi. Dəyişikliklərdən biri də "ƏDV-ni geri al" qaydaları ilə bağlıdır. Dəyişikliyə əsasən, yanvar ayından etibarən plastik kartdan istifadə edərək alış-veriş edən vətəndaşlarımız üçün ƏDV-nin 15 deyil, 17,5 faizi geri qaytarılacaq. Nağd şəkildə ödənişlər zamanı isə ƏDV-nin 10 deyil, beş faizi geri qaytarılır. Bu da vətəndaşları nağdsız ödəmələrə istər-istəməz təşviq edir. Ödəmə kartlarına toplanan faizlər, keşbeklər hesabına insanlar əlavə alış-veriş edə bilirlər. İkincisi, ƏDV faizlərinin nağdsız ödəmələrə görə daha artıq faizlə geri qaytarılması dövlətə sərf edir. Vergidən yayınmaların qarşısını almaq, vergilərin dövlət büdcəsinə daxilolmalarını artırmaq, ticarət dövriyyəsinə, gəlirlərə dövlət nəzarətini gücləndirmək üçün nağdsız ödəmələr tutarlı vasitədir. Bir halda ki, nağdsız ödəmələr vətəndaşa da xeyirlidir, niyə də ondan çox istifadə edilməsin? Başqa məsələ ölkədə keçərli olan plastik kartları xarici ölkələrdə də keçərli etməkdir. Yaxşı olar ki, vətəndaşlara məxsus plastik kartlar digər ölkələrə səfərlər zamanı da işlək olsun. Beynəlxalq ödəmə kartları mövcuddur, amma bu kartlara da hamı sahib deyil.

**İqtisadçı qeyd etdi ki, nağdsız ödəmələrin miqyası getdikcə daha çox artacaq:**

- Məlumdur ki, işğaldan azad olunan ərazilərimizdə nağdsız ödəniş edən vətəndaşlarımız üçün ƏDV-nin geri qaytarılacaq faizi 30-a yüksəldilib. İşğaldan azad edilmiş ərazilərdə nağdsız ödəmələr zamanı ƏDV-nin 30 faizi geri qaytarılacaq. Plastik kartdan istifadə edərək ödəniş edən vətəndaşlarımıza 2023-cü ildən etibarən daha çox vəsait geri qaytarılacaq. Bu baxımdan nağdı deyil, nağdsız ödəniş daha məqsədəuyğundur və eləcə də iqtisadiyyatın leqallaşması baxımından çox vacibdir.

**Məlahət Rzayeva**

# Müflis bankların kreditorları birləşməlidir

## Çünki kreditorların hüquqları qorunmayan ölkədə əlverişli investisiya mühiti ola bilməz

**"Hazırda 21 müflis bank ləğv prosesindədir. Ləğvedici də Əmanətlərin Sığortalanması Fondudur (ƏSF)". Bu sözləri hüquqşünas, bank məsələləri üzrə ekspert Əkrəm Həsənov deyib.**



Ekspert "Şərq"ə açıqlamasında bildirib ki, ƏSF-in işi həmin bankların əmlakını baha qiymətlə satmaq və verdiyi kreditləri qaytarmaqdır. Əldə olunan vəsait də kreditorlar (bankda pulu qalmış şəxslər) arasında mütənasib şəkildə bölüşdürülməlidir: "Bu prosesin düzgün həyata keçirilməsi üçün şəffaflıq və ictimai nəzarət lazımdır. İlk növbədə də kreditorların nəzarəti, çünki müflis banklar faktiki onlara məxsusdur. Lakin reallıqda kreditorlar bu prosesə heç yaxın da buraxılmır. ƏSF onlara adekvat məlumat vermir. Prosesə formal nəzarəti Apellyasiya Məhkəməsi həyata keçirir. Amma həmin məhkəmə icraatı da şəffaf deyil, kreditorlar komitəsinə heç bir məlumat verilmir. ƏSF-in rəhbəri Azad Cavadov və Vüqar Abdullayev olanda, o, daha şəffaf idi. Son illər ərzində ƏSF-in özbaşınalığı artıb. ƏSF həm bankların əmlakını qeyri-şəffaf satır, həm də ƏSF bankların əmlakının əksər hissəsini ümumiyyətlə satmır, bəzilərini xəlvəti idarə edib gəlir götürür. ƏSF bankların kreditləri üzrə borcalanlara kreditorların maraqlarına zidd və onlardan xəbərsiz olaraq güzəştlər edir, bəzi kreditləri tələb etmir, iddia müddətlərini buraxır, bu işləri savadsız, qeyri-dürüst aparır. Bankların ləğvinə yüksək və kreditorların maraqlarına zidd şəkildə xərclər çəkir, daxil olan vəsaitləri kreditorlar arasında qeyri-dürüst bölüşdürür. Bu siyahını davam etdirmək də olar. Əsas odur ki, məhz bu qanunsuz və özbaşına fəaliyyətinin ifşasından qorxaraq ƏSF kreditorlara məlumat vermir".

Ekspertin sözlərinə görə, problemi aradan qaldırmaq üçün müflis bankların kreditorları birləşməlidir. İlk növbədə kreditorlar komitələri qurultay keçirməli və mövcud problemləri müzakirə edərək ƏSF-yə qarşı yekdil müqavimət strategiyasını razılaşdırıb hərəkətə keçməlidirlər: "Çünki kreditorların hüquqları qorunmayan ölkədə əlverişli investisiya mühiti ola bilməz. Həmin ölkədə banklara pul qoyan olmayacaq. İnsanların və sahibkarların pulunu əvvəlcə banklar və onlara nəzarət edənlər yeyib-dağıdır, sonra da olan-qalan əmlakın başına ƏSF daş salır. Buna son qoyulmalıdır".

**Şəymən**

# İmmuniteti zəif olan insanlar tez xəstələnib, gec sağalırlar

## Sağlam həyat tərzi, düzgün yuxu rejimi, bol maye, fiziki aktivlik, normal bədən çəkisi, stressdən uzaq olmaq lazımdır

**İmmun sisteminin zəifləməsində anadangəlmə xroniki xəstəliklər və infeksiyalar kimi faktorlarla yanaşı, qeyri-sağlam qidalanmanın böyük təsiri var. İmmun sisteminin zəifləməsinin ən çox yayılmış səbəbi balanssız qidalanmadır.**

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, terapevt Zakir Quliyevin sözlərinə görə, immun sisteminin zəifləməsinin ən mühüm göstəricisi tez-tez təkrarlayan infeksiyalardır: "İmmun sisteminin zəifləməsi ilə halsızlıq, yorğunluq hissi, bədənin müxtəlif yerlərində ağrılar, təkrarlayan infeksiyalar, depressiya, saç tökülməsi, diqqət pozğunluğu kimi hallar müşahidə edilə bilər. İmmun sisteminin zəifləməsi nəticəsində orqanizm xarici və daxili mühit amillərinə qarşı həssas olur və xəstəliklərə qarşı mübarizə qabiliyyətini itirir".

Terapevt bildirib ki, az proteinli qidalanma, artıq çəki və həddindən artıq arıqlıq immun sistemini zəiflədən amillərdir: "A, B6, B12, C, D və E vitaminləri, selen, dəmir və sink immun sisteminin kompleks reaksiyalarını sürətləndirir. Bunlardan hər hansı birinin olmaması bədənimizi xarici amillərə qarşı həssas edir. Siqaret və alkoqol istifadəsi, radiasiyaya məruz qalma, keyfiyyətsiz yuxu və yuxunun az olması, istirahət etməmək, həddindən artıq stress yükü, tez-tez antibiotik və digər dərmanların istifadəsi immun sistemimizin zəifləməsində rol oynayan əsas səbəblərdəndir".

Mütəxəssis hansı təbii vasitələrlə immuniteti gücləndirməyin mümkünlüyündən də danışıb: "Daha güclü immun sisteminə sahib olmaq üçün bədən çəkisini nəzarətdə saxlamaq, yəni artıq çəki qazanmamaq, eyni zamanda sürətli bir şəkildə arıqlamaqdan çəkinmək lazımdır. Bədənimizin mayeyə olan ehtiyacı qədər su içmək mütləqdir. Əgər ürək-damar sistemimizdə və böyrəklərdə hər hansısa bir problemimiz varsa, içəcəyimiz mayenin miqdarını öz həkiminizlə və ya müalicə edən mütəxəssislə məsləhətləşin. Yuxu rejimi güclü immunitetin əsas şərtlərindən biridir. "Fast food"dan uzaq durun, çünki bu qidalar kalorisinin yüksək olmasına baxmayaraq, immun sistemə çox da müsbət təsir göstərmir".



"Keyfiyyətli və balanslaşdırılmış qidalanın. İmmun sistemi gücləndirmək üçün ən yaxşı üsullardan biri çoxlu meyvə-tərəvəz yemək və mövsümə uyğun təbii şirələr qəbul etməkdir. Ümumi gigiyenaya, əsasən də əllərin gigiyenasına diqqət yetirmək vacibdir. Müntəzəm olaraq idmanla məşğul olmaq güclü immun sistemi üçün vacibdir. Pis vərdişlərdən (tütünçəkmə və spirtli içkilərdən istifadə), əsəb və stressdən maksimum uzaq durmaq lazımdır. Bundan əlavə, vitamin D immun sisteminin stimullaşdırılmasında vacib rol oynayır. Vitamin D hüceyrə mikromühitində metabolik stresi azaldaraq orqanizmin təbii immunitetini dəstəkləyən bir vitamindir. Bədənin D vitamini sintezinə olan ehtiyacının 90 faizi dəri tərəfindən günəş işığı ilə qarşılanır. Günəş işığından başqa ayran, pendir, qatıq, bitki yağı, balıq və balıq məhsulları, qaraciyər, yumurta sarısı, göbələk D vitamininin ən əhəmiyyətli mənbələrindəndir. Həmçinin D vitamini xəstəliklərə səbəb olan virus və bakteriyalarla mübarizə aparır" - Z.Quliyev əlavə edib.

İnfeksionist İlahə Vəliyeva "Şərq"ə açıqlamasında deyib ki, payız-qış aylarında anidən dəyişən hava immun sisteminə mənfi təsir edir ki, bu da orqanizmin müxtəlif infeksion xəstəliklərlə mübarizə qabiliyyətini aşağı salır. Ona görə insanlar arasında qrip, sinisut, rinit, bronxit kimi hava-damcı infeksiyaları geniş yayılır. Xüsusən altda yatan ürək-damar, hipertoniya, şəkər kimi xroniki xəstəliklər olduqda, bu, çox zaman pnevmoniya ilə ağırlaşır. Buna görə bu aralar bu xəstəliklərdən qorunmaq üçün immun sistemini gücləndirmək lazımdır:

"İmmunitet orqanizmi xəstəliklərdən qoruyan müdafiə sistemidir. İmmun sistem normal fəaliyyəti zamanı orqanizmi viruslar, bakteriyalar, göbələk və parazitlər kimi patogen mikroorqanizmlərdən qoruyur. İmmun sistem həmçinin allergenlərdən, xərçəng hüceyrələrindən və ölmüş hüceyrələrdən qoruyur. İmmun sistem quruluşca çox mürəkkəbdir və onun əsas vəzifəsi daxili stabilliyi və orqanizmi yad cisimlərdən qorumaqdır.

İmmun sistem orqanizmi xarici agentlərdən qoruyan hüceyrə və orqanlardan ibarətdir. İmmun sisteminin orqanları bütün orqanizm boyu yerləşir və sinir, ürək-damar, sümük və əzələ sistemi ilə birlikdə orqanizmin vahid funksional sistemini təşkil edir. Bu sistem yad cisimlərlə qarşılıqlı təsir nəticəsində kimyəvi maddələr ifraz etməyə başlayır. Məhz bu maddələr hüceyrələrin inkişafı və proliferasiyasını, digər hüceyrələrin isə zədələnmiş ocağa yönləndirilməsini təmin edir. Əgər orqanizmin immun sistemi zədələnmiş və ya zəifləmişsə, onda orqanizm xəstəliklə qarşı daha da həssaslaşır. Zəifləmiş immunitetin nəticəsində tez-tez xəstələnmə halları, qrip, allergiya, artrit, xərçəng kimi xəstəliklər yaranır".

**İnfeksionistin sözlərinə görə, orqanizmin immun sistemi anadangəlmə və qazanılma olmaqla 2 əsas hissədən ibarətdir:** "Anadangəlmə immunitet orqanizmin ilk müdafiə sistemidir. Genetik təyin olunur və təbii, qeyri-spesifik olur. Anadan olan gündən anadangəlmə immunitet bizi xarici mühitin zərəli amillərindən və patogen mikroorqanizmlərdən qoruyur. Anadangəlmə immunitetin hüceyrələri qan vasitəsilə yad mikroorqanizmlərin orqanizmə daxil olması riski çox olan nahiyələrə gətirilir. Beləliklə də, dəri və selikli qişalar yad mikroorqanizmlərin orqanizmə daxil olmasını əngəlləyən ilk baryer rolunu oynayır. Qazanılma immunitet isə spesifik immunitet olub, orqanizmin ikincili müdafiəsini təşkil edir. Bu immunitet orqanizmin xarici faktorlarla, təbii immunitet tərfindən məhv edilməmiş bakteriyalarla təması nəticəsində yaranır. Qazanılma immunitet mürəkkəb sistem və hüceyrələrin iştirakı ilə yaranan anticisimlərlə həyata keçirilir".

**İ.Vəliyevanın sözlərinə görə, immuniteti zəif olan insanlar tez xəstələnib, gec sağalırlar. Gündəlik həyatımızda orqanizmimiz viruslar, bakteriyalar, kanserogen maddələr və s. zərərli faktorlarla qarşılaşır:** "Bu zaman immun sistem fəaliyyətə keçir. Ağ qan hüceyrələri onları zərərsizləşdirir və antitellər sintez edərək orqanizmi qoruyurlar. Genetik faktorlar, stress, yuxusuzluq, pis qidalanma, oturaq həyat tərzi, çəki azlığı və piylənmə, günəş və təmiz havada az olmaq, zərərli vərdişlər və s. səbəblərdən immun sistem zəifləyir. İmmuniteti gücləndirmək üçün sağlam həyat tərzi, düzgün yuxu rejimi, bol maye, fiziki aktivlik, normal bədən çəkisi, stressdən uzaq olmaq lazımdır. Zehni funksiyaları, yaddaşı yaxşılaşdırır, hormonal vəziyyətə və xarici görünüşə müsbət təsir göstərir. Həmçinin ildə 1-2 dəfə mühiti dəyişmək, təbiət qoynunda istirahət etmək, təmiz havada gəzintilər etmək və yayda günəş vannaları qəbul etmək, dənizdə olmaq lazımdır".

**Şəymən**



## Yol hərəkəti qaydalarını daha çox varlı təbəqə pozur

### Belə halların qarşısını almaq üçün cəzalar bir az da sərtləşdirilməlidir

**"Dünyanın hər yerində narkotikin təsiri altında avtomobil idarə edən şəxslərə rast gəlmək mümkündür".**

Bunu "Şərq"ə nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli deyib. Onun sözlərinə görə, sürücülərin narkotikin təsiri altında və ya alkoqollu içkilər qəbul edərək avtomobil idarə etməsi xüsusi cihazlarla müəyyən olunur: "Narkotik şübhəsi olduqda isə həmin şəxslər narkoloji müayinədən keçirlər. Əfsuslar olsun ki, belə hallarda yalnız İnzibati Xətalar Məcəlləsinin 330.1 maddəsi icra edilir. Bu da sürücülər üçün 400-500 manat məbləğində cərimə, 6 ay müddətində sürücülük hüququndan məhrumetmə və 5 bal tətbiq olunur. Bəzən sözügedən cəzalar 1 il müddətinə qədər də uzadıla bilər".

Ekspertin qənaətincə, daha çox əhalinin varlı təbəqəsi qaydalara riayət etmir: "Ailə büdcəsinə 500-1000 manat civarında məbləğin təsiri olmayan vətəndaşlar və ya övladları daha çox qanunsuzluq edirlər. Belə halların qarşısını almaq üçün cəzalar bir az da sərtləşdirilməlidir. Mübarizə metodu yalnız reydlərin mütəmadi şəkildə həyata keçirilməsi və Dövlət Yol Polisi İdarəsinin (DYP) gücləndirilmiş iş rejimləri ilə mümkündür".

*Qeyd edək ki, narkotik vasitənin təsiri altında avtomobil idarə edən şəxs sürücülük hüququndan məhrum edilməklə inzibati qaydada həbs olunub. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib.*

**Sücayət Mehti**

## Gündə 10 ədəd qırmızı turp

### C vitamini ehtiyacını ödəmiş olur



**Ürək və ağciyərlərin sağlamlığı üçün təbii qidalardan biri də qırmızı turpdur.**

"Mediciina" xəbər verir ki, 10 qırmızı turp sürtgəcdən keçirib yeyən adam gündəlik C vitamini ehtiyacını ödəmiş olur.

Turp xərçəng riskini azaldır. Qanda xolesterini azaldır.Qaraciyər və öd kisəsinin sağlamlığı üçün qara turp, antioksidant i baxımından qırmızı turp yaxşıdır.

Ürək üçün vacib olan kalium da qırmızı turpda var. Ona görə qırmızı turpdan hər gün 3-5 ədəd yeyənlərdə ürək sağlamlığı qorunur.

**Elan**

Əliyev Əziz Rəhim oğlunun adına GH006838 seriyalı hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MU-GA400603803000225AZM000
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 380



## Zəlzələ məzarlığı...

### Adları yox, yalnız nömrələr yazılır



**Qardaş Türkiyəni silkələyən dəhşətli zəlzələdə həyatını itirənlər dəfn edilir. Lakin bu dəfn də dəhşətli görüntülərlə yaddaşlarda qalacaq.**

Zəlzələ bölgələrində "zəlzələ məzarlıqları" əmələ gəlir. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, ağır fəlakətlə üzləşmiş bölgələrdən biri Hatayda minlərlə insanın həlak olduğu bildirilir. Həlak olanların dəfn edilməsinə başlanılıb və Hatayın Antakya bölgəsində geniş sahədə məzar yerləri sıralanıb. Dağıntılar altından çıxarılmış cəsədlər ədli-tibb müayinəsindən sonra əraziyə gətirilir, dəfn mərasimləri islami qaydada icra edilir. Lakin məzarlara ad, soyad yazılmır, yalnız nömrələnir. Yerlilərin dediyinə görə, bu, dəfnlərin mümkün qədər tez icrası və qarışıqlıq yaranmasının qarşısını almaq məqsədi daşıyır. Vaxt itkisi olmasın deyə, hələlik ad, soyad yazılmır, məzarlar nömrələnir ki, sonra, daha uyğun bir vaxtda hansı məzarda kimin dəfn edildiyi məlum olsun. Cənazəni dəfn edilmək üçün başqa şəhərə, ya da bölgəyə aparmaq istəyənlərə də icazə verilir. Zəlzələ bölgələrinə mobil qüslxanalar gətirilib, cənazələr orada yuyulub kəfənlənir. Rəsmilər bildirib ki, bu cür qüslxanalar ehtiyac olan digər yerlərə də göndərilir.

**Məlahət**

## İtaliya Türkiyəyə səhra xəstəxanası göndərir



**İtaliya donanmasına məxsus gəmi ilə Türkiyəyə səhra xəstəxanası göndəriləcək.**

Azərtac xəbər verir ki, səhiyyə xidmətlərinin göstəriləcəyi səhra xəstəxanası, həmçinin lazımi ilkin tibbi yardım materialları ilə təchiz olunub.

Bundan başqa, İtaliya zəlzələlərin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Türkiyəyə yanğınsöndürənlər və səhiyyə işçilərindən ibarət briqada göndərib. Bu qrup ümumilikdə 60 nəfərlik yüksəkixtisaslı mütəxəssisdən və koordinasiya üçün mülki müdafiə qüvvələrinin 10-dək şəxsi heyətindən ibarətdir.

## Mətanət İsgəndərlinin də qohumları zəlzələdə həlak olub



**Əməkdar artist Mətanət İsgəndərli qohumlarının Türkiyədə Kahramanmaraşda baş verən zəlzələdə həlak olduğunu deyib.**

Müğənni bu haqda "Elgizlə izlə" verilişində danışıb. O bildirib ki, qızı Ülkərin ailə qurduğu Enginin xalası da zəlzələ olan bölgədə yaşayır:

"Qızlarının birinin 10, digərinin isə 12 yaşı var idi. İki uşaq da ölüb. Bircə oğul övladları qalıb. Ata, ana o qədər səbrlidirlər ki... Deyirlər, biz sevinirik ki, qızlarımın ikisi də bir yerdədirlər, darıxmayacaqlar. Gör, ana nə deyir. Onunla özünə toxtaxlıq verir. Özü də övladlarına necə bağlı ailə idi".



# 8 nəfərlik ailəsini oyadıb xilas etdi

## Özü isə həyatını itirdi

**Diyarbəkirdə "əsrin fəlakəti" olaraq xarakterizə edilən iki güclü zəlzələdə dağılan və mərkəzi Kahramanmaraşda olan, 10 vilayətdə zərər çəkmiş binalardan biri də Taş ailəsinin yaşadığı Bağlar mahalında yerləşən "Yoldaş" yaşayış binası olub.**

Zəlzələ zamanı oyaq olan 12 yaşlı Rüzgar Taş şiddətli sarsıntı hiss etdiyi zaman anası Nebahat, atası Halim Taş və 2-si bacısı olmaqla 6 bacı- qardaşını yuxudan oyandırıb. 5 bacı-qardaş binadan çıxaraq ərazidən uzaqlaşa biliblər. Rüzgar, anası, atası və böyük bacısı çölə çıxmaq istəyərkən uçan binanın altında qalıblar.

Rüzgarın əmisi və ətrafdakıların köməkliyi ilə ana Nebahat, ata Halim Taş və bacısı yaralı halda dağıntılar altından çıxarılıb, Rüzgar isə vəfat edib.

İtirdiyi övladının fotosuna baxaraq duyğulu anlar yaşayan ağrılı ana Nebahat Taş Anadolu Agentliyinə (AA) zəlzələ zamanı yatdıqlarını, oğlu Rüzgarın bütün ailə üzvlərini yuxudan oyadaraq qaçmağa kömək etdiyini söyləyib: "Zəlzələ o qədər güclü oldu ki, evin divarlarına yapışdıq. O vaxt Rüzgar "Ana, qorxma, ana dayanacaq, qorxma, ana" deyərək quş kimi çırpınırdı, bir əli ilə divardan, bir əli ilə əlimdən tutmuşdu. Hamımız təlaş içindəydik, nə etdiyimizi bilmirdik".

Oğlu ilə arasında bir metrlik məsafənin olduğunu bildirən Taş sözünə davam edir: "Elə bil partlayış oldu, bina dağıldı. Gözümü açanda yerin altında idim. Bu zaman həyat yoldaşımın səsi gəldi. Hava qaralmışdı, heç nə görmürdüm. Başımdan qan gəlirdi. Mən də gözümü açdım. Bu zaman qızımın səsi gəldi. Binanın çıxışında 4 gənc var idi. Birinin cəsədi üstümdə idi. Digər biri əli ilə ayağımdan tutdu".

Nebahat Taş oğlunun səsini heç eşitmədiyini, ərinin qışqıraraq kömək istədiyini deyib.

"Rüzgardan heç bir səs eşitmədim. Əlimə su borusu ilişmişdi, çıxartdım. Başıma ilişmiş stəkanı çıxartdım. Telefonum davamlı zəng çalırdı. Zəng edən Rüzgarın müəllimi idi, amma aça bilmirdim. Qonşuluqdakı dükançı da zəng edirdi, aça bilmədim. Ərim qışqıranda qaynımın səsini eşitdim. "Səni xilas edəcəm" dedi. Əvvəl qardaşını çıxartdı. Sonradan məni böyük səylə çıxartdı. Böyük oğlum dedi ki, ana, Rüzgar yoxdur".



Taş birinci mərtəbəyə enərkən binanın çökəcəyini anladıqlarını və sütunların tamamilə partladığını gördüklərini bildirib.

Rüzgarın çox ağıllı, mərhəmətli, dostlarını sevən, dostları ilə uyğunlaşan, futbolsevər bir uşaq olduğunu edən Nebahat Taş, "Rüzgarım hamımızı oyandırdı, hamımızı xilas etdi, amma özünü xilas edə bilmədi. Oğlum mələk oldu. O qədər acizəm. Uşaq ağrısı qədər çətin bir şey yoxdur", - deyə nalə çəkib.



## Onlar daha həyatda yoxdur

### Telefonundan 61 nəfərin adını sildi

**Zəlzələ bais olduğu faciəli həyat hekayələri insanın qanını dondurur.**

"NTV.com.tr"nin xəbərinə görə, zəlzələ bölgəsində axtarış-xilasetmə işləri ilə yanaşı, zərərçəkənlərin yerləşdirilməsi və təminatı işləri də ciddi şəkildə aparılır. Yaxınlıqda yerləşən, lakin ziyan görməmiş hotel və mehmanxanalara yerləşdirilənlər də var. Bölgədə vəzifə başında olan telemüxbirlərsə zərərçəkənlərin ürək dağlayan hekayələrini lentə alır. Zərərgörmüşlərdən biri, Adıyamandan gəlmiş Serpil Subaşı zəlzələ anında canlı bomba partladığını zənn edib: "Binanın birinci mərtəbəsindəydik. Partlayışa oxşar səs eşitdik, özümüzü küçəyə atdıq. Qaldığımız binanın 3-4 mərtəbəsinin yıxıldığını gördük. Bacım, yeznəmiz, əmim uşaqlarından hələ də xəbər yoxdur. 4 yaşlı nəvəm isə evimizin çökdüyünü bilmir, elə zənn edir ki, tətilə gəlmişik, qaldığımız mehmanxananı bəyənir, deyir, nə gözəl yerdir". Malatyadan gələn Engin Kubilay isə itirdiyi dostlarından böyük kədərlə danışıb: "Telefonumdan 61 nəfərin adını sildim Çünki onlar daha həyatda deyillər. 61 dostumu, yaxınımı, qohumumu itirmişəm".

**Məlahət**

## 102 saat kömək gözlədilər

### Bir ailənin 6 üzvü xilas edildi



**"Əsrin fəlakəti" adlandırılan Türkiyədə baş verən zəlzələdə dağıntılar altında qalanların axtarışı davam etdirilir.**

Axşam.az bildirir ki, bir ailənin 6 üzvü zəlzələdən 102 saat sonra xilas edilib.

Hatayın İskenderun bölgəsində beşmərtəbəli binada yaşayan ailə dağıntılar altında günlərlə kömək gözləyib. Xilasedicilər onların səsini eşitdikdən sonra axtarış işlərini gücləndiriblər.

Dağıntılar altında başqa insanların da olduğu bildirilib.

## Türkiyədə yeraltı təkanlar 3 həftə davam edəcək

### Bu barərə rusiyalı seysmoloq, danışıb



**Türkiyədə katastrofik zəlzələ təkanları bundan sonra da 10 illərlə özünü göstərə bilər.**

Bakupost.az xəbər verir ki, bu barərə rusiyalı seysmoloq, akademik, Pyotr Şebalin danışıb.

"Son zəlzələdən sonra avtorşoklar və yeraltı təkanlar daha 3 həftə davam edəcək. Afterşok prosesi daha sürətli gedir.

Daha 15-20 gün biz 6 bal və daha yüksək afterşoklardan qorxmalıyıq. Sonra təhlükə kəskin düşür.

Amma prinsipcə ən güclü zəlzələlərdən sonra yeraltı təkanlar, silkələnmə nəinki aylarla, hətta on illərlə davam edə bilər.

Məsələn, 1952-ci ildə Kalifornoyadakı zəlzələdən sonrakı aftorşoklar indiyə kimi arada olur. Bunlar yüngüldür, güclü dağıdıcı deyil. Biz indi zəlzələdən dərhal sonrakı aftorşoklardan danışırıq. Onlar dağıdıcı ola bilər. Ona görə hələ 15 gün ayıq olmalıdırlar".

## İlon Mask inanır

### İnsanlar 10 il ərzində Marsın səthinə enə biləcəklər



**İnsanlar 10 il ərzində Marsın səthinə enə biləcəklər.**

**Azərtac xəbər verir ki, bunu "SpaceX"in qurucusu İlon Mask deyib.**

**"Etiraf edirəm, mən optimistəm, inanıram ki, Marsa insanların enməsi mümkündür və bu, çox güman 10 ildən sonra mümkün olacaq", - deyə o bildirib.**

**İlon Mask "SpaceX" şirkətinin Marsa uçuşlar üçün nəzərdə tutulmuş, 100 nəfər tutumuna malik və təkrar istifadə edilə bilən "Starship" gəmisinin bunun üçün hazırlandığını qeyd edib. Bu günə qədər "Starship" prototipləri bir neçə sınaq uçuşu edib və Yerə qayıdıb. Lakin indiyədək bütün sınaqlar yalnız Yer atmosferində aparılıb.**

## Məşhurlar da yardıma qoşuldular



**Türkiyəli müğənni Haluk Levent ölkəsində baş verən dəhşətli təbii fəlakətdən sonra yardıma ehtiyacı olan şəxslərə pul göndərən növbəti məşhurların adlarını açıqlayıb.**

**Bizim media xəbər verir ki, sənətçilər Sibel Can bir milyon lirə (təxminən 90300 manat), Orhan Gencebay 500 min lirə (təxminə 45150 manat), Halit Ergenç və Belgüzar Korel aktyor cütlüyü isə 400 min lirə (təxminən 36100 manat) ianə bağışlayıb.**

***Qeyd edək ki, dörd gün əvvəl Türkiyədə zəlzələ nəticəsində 17 674 nəfər həlak olub. Yaralı sayı isə 72 879 nəfərdir.***

## Türk məşhurlar kimsəsiz qalan uşaqlara sahiblənəcəklər



**Türk məşhurlar zəlzələdə zərər görənlərə yardım etməklə yanaşı, həm də anasız-atasız qalan körpələrə sahiblənmək istəyirlər.**

Olay xəbər verir ki, aktrisa Hande Erçelin influenser bacısı Qamze Erçel və həyat yoldaşı Caner Yıldırım da bu barədə instaqramda paylaşım edib. Onlar bildiriblər ki, artıq bunun üçün rəsmi işlərə başlayıb, müraciət göndəriblər.

Bundan başqa, müğənni Petek Dinçöz və həyat yoldaşı Nida Bayraktar da eyni şəkildə uşaqlardan birinin ailəsi olmaq istədiklərini söyləyib.

## "Cənnətdən bir kadr" şüarı ilə satılan bina zəlzələdə yerlə bir oldu




**Hatayın Antakya səmtində zəlzələ nəticəsində çökən binalardan biri də zəlzələyə davamlı adıyla satılanlardandır.**

Milli.Az Takvim-ə istinadla bildirir ki, sözügedən ərazidə 12 mərtəbəli, 250 mənzilli bina zəlzələ nəticəsində yerlə bir olub.

Diqqət çəkən məqam isə 2013-cü ildə tikilən binanın reklamında "Cənnətdən bir kadr" sözlərinin olmasıdır.